Günəş Şərqdən doğur!

№ 30 (5311), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

17 fevral 2021-ci il (çərşənbə)




## 140 nəfər yoluxub, 2 nəfər vəfat edib

Azərbaycanda 191 nəfər koronavirusdan sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 140 yeni yoluxma faktı qeydə alınıb, 191 nəfər müalicə olunaraq sağalıb.

(Səh.4)

## Metro, metro, yenə də metro...

Avtobuslarda sərnişinlər biri-birinin belinə minir, hamı əsəbi, hamı narazıdır



Səhər saatlarında "M1a" xətt marşrutu ilə hərəkət edən avtobusun sürücüsü yanaşı zolaqda hərəkətdə olan həmkarını harayladı...

(Səh.6)

### Günün içindən...



## "Əsas məsələ ölkələrimiz arasında dostluq münasibətləridir"

Prezident İlham Əliyev Belarusun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkovun etimadnaməsini qəbul edib.

(səh.2)

## Nazirlər Bakıda toplaşır



Türkiyə və Gürcüstanın XİN rəhbərləri Azərbaycana səfər edəcəklər

(səh.2)

# Əfv gözlənilir



## Komissiyada 100-dən artıq müraciətə baxılıb

**Bu gün Azərbaycan Prezidenti yanında Əfv məsələləri Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.** Bu barədə APA-ya komissiyanın üzvü Rəşad Məcid məlumat verib. O bildirib ki, iclas çox məhsurdar keçib:

"İclası komissiyanın sədri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev aparıb.

(səh.3)

## Vaşinqtonun Ankaraya münasibəti dəyişməyəcək

"Amerikanın regionda istifadə etdiyi əsas güc terrorçu qruplaşmalardır"

(səh.3)



## Vətən müharibəsində itkin düşən daha bir hərbçimiz şəhid olub

(səh.4)

## Delimitasiya prosesi gedir

"Qafanda 20, Mehridə 8, Gorusda 10 kilometr geri çəkilmə var"

(səh.3)

## "Ermənistan hələ təhlükə mənbəyi olaraq qalacaq"

Şöhrət Eyvazov: "Biz informasiya təhlükəsizliyinin tələblərinə əvvəlki illərlə müqayisə olunmayacaq qədər doğru əməl elədik"

(səh.7)

## Hər sürücü aya ortalama 200 manat benzinə pul xərcləyir

"Bizim xərcimizin çox çıxmasının əsas səbəbi odur ki, yanacağa müxtəlif qatqılar qatılır"

(səh.12)



## Çiynində 4 gün yaralı əsgər gəzdirib

Silahdaşları "burax onu, öləcək" deyiblər, lakin o, əsgərini tibb məntəqəsinə çatdırıb

(səh.9)



## Tariximizdə ilk dəfə...

Azərbaycanlı ekspert BMT-də vəzifəyə təyin olundu

(səh.5)

# “Əsas məsələ ölkələrimiz arasında dostluq münasibətləridir”

## Prezident İlham Əliyev Belarusun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkovun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Andrey Ravkov dedi:





- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti, icazə verin, Sizi salamlayım. Belarus Respublikasının Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun etimadnamələrini Sizə təqdim etməyi özümə şərəf sayıram. Bu etimadnamələrlə o, mənə Belarus Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri kimi son dərəcə məsuliyyətli bir missiyanı etibar edir. Sizə bildirirəm ki, əvvəlki səfir Gennadi Vladimiroviç Axramoviç işini başa çatdırıb və Belarus Respublikasına gedib.

**Səfiri salamlayan Prezident İlham Əliyev dedi:**

-Sağ olun. Sizi Azərbaycanda salamlayıram, vaxtınızın xoş keçməsini və fəal iş arzu edirəm. Mənim fikrimcə, iş çox olacaq. Ona görə ki, bizim dövlətlərarası münasibətlərin gündəliyi yetərincə genişdir, çox sahələri əhatə edir. Son illərdə biz həm siyasi, həm iqtisadi sahələrdə, həm də sənaye kooperasiyası sahəsində fəal qarşılıqlı işlər görmüşük. Əlbəttə, bu cür fəal qarşılıqlı işləri davam etdirmək niyyətindəyik.

Əsas məsələ ölkələrimiz arasında dostluq münasibətləridir. Uzun illər boyu bu münasibətlər böyük potensiala, yaxşı dinamikaya malik olduğunu göstərir. Ali səviyyədə tez-tez əlaqə saxlamağımız, qarşılıqlı səfərlər, əlbəttə, münasibətlərimizin inkişafına böyük təkan verir və biz əməkdaşlığın yaxşı nümunələrini görürük. Bu, ticarət sahəsinə də aiddir. Hərçənd, pandemiya ilə əlaqədar təbii ki, bütün ölkələrdə ümumi daxili məhsulun və əmtəə dövriyyəsinin azalması müşahidə olunur. Buna baxmayaraq, düşünürəm ki, pandemiyadan sonra biz qısa müddətdə vəziyyəti bərpa edəcəyik. Bütövlükdə pandemiyadan əvvəlki son illərdə bizim ticari-iqtisadi münasibətlərin çox fəal dinamikası, idxal və ixrac etdiyimiz malların çeşidinin genişlənməsi müşahidə olunurdu.

Əlbəttə, sənaye kooperasiyası əməkdaşlığın mühüm istiqamətidir. Azərbaycanda Belarus-Azərbaycan müştərək müəssisələrinin yaxşı nümunələri var. Biz hətta üçüncü ölkələrin bazarlarına birlikdə çıxırıq. Fikrimcə, bu istiqamətdə əlavə addımlar atılacaq. Uzun illər boyu uğurla həyata keçirilən hərbi-texniki əməkdaşlıq mühüm sahədir. Biz hərbi-texniki əməkdaşlığın potensialını artırmaqla, o cümlədən yüksək texnologiyalar sahəsində də əməkdaşlıq edirik. Beləliklə, gündəlik yetərincə genişdir. Əminəm ki, Azərbaycanda olduğunuz müddətdə siz qarşılıqlı fəaliyyətin potensialını daha da artırmaq üçün bu məsələlərlə fəal məşğul olacaqsınız. Əlbəttə, biz əvvəl olduğu kimi, bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyəcəyik. Əminəm ki, belə çoxtərəfli və çoxplanlı birgə fəaliyyət bundan sonra da ölkələrimizin yaxınlaşmasına şərait yaradacaq. Sizə uğurlu iş və Azərbaycanda vaxtınızın xoş keçməsini arzu edirəm.

**Səfir Andrey Ravkov:** Sağ olun, cənab Prezident. İcazə verin, ilk növbədə, Sizə Aleksandr Qriqoryeviç Lukaşenkonun ən səmimi salamlarını və xoş arzularını çatdırım, Azərbaycan Respublikasının Prezidenti, onun dostu kimi həm ikitərəfli formatda, həm də beynəlxalq məkanlarda Belarus Respublikasına göstərdiyiniz dəstəyə görə Sizə onun səmimi təşəkkürünü bildirim.

Belarus Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü həmişə bütün məsələlərdə və ardıcıl olaraq dəstəkləyib. Biz atəşkəs barədə bəyanat imzalanması və Azərbaycanın əzəli torpaqlarını öz tərkibinə qaytarması xəbərini böyük ruh yüksəkliyi ilə qarşıladıq.

Hörmətli cənab Prezident, Siz tamamilə düzgün olaraq dediniz ki, dövlət rəhbərləri arasında dostluq və yüksək səviyyədə əlaqələr bu inkişafın, qarşılıqlı münasibətlərin möhkəmlənməsinin rəhnidir. Belarus da bunda maraqlıdır.

Dövlətimizin başçısı Belarus Prezidentinin salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

*Prezident İlham Əliyev dünən həmçinin İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidin etimadnaməsini qəbul edib.*



## “YAŞAT" Fondu iki qazi və bir şəhid anasının əməliyyat xərclərini qarşılayıb

**”YAŞAT” Fondu yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması və şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi üzrə işləri davam etdirir.**

Fonddan Trend-ə verilən məlumata görə, qazilərimiz Rahim Bəhrəmlinin və Nadir Məmmədovun, şəhidimiz Şəhriyar Əsgərovun anası Minayə Əsgərovanın əməliyyat xərcləri Fond tərəfindən qarşılanıb.

Xatırladaq ki, ”YAŞAT” Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 ”Çağrı” Mərkəzi fəaliyyət göstərir.

# Rusiya sülhməramlıları Kəlbəcərə 185 ton yükün çatdırılmasını təmin edib

## Yük generator stansiyaları, elektrik avadanlıqları, dəmir-beton konstruksiyaları və tikinti materiallarından ibarət olub

Qarabağa yerləşdirilən Rusiya sülhməramlıları Azərbaycanın işğaldan azad olunan əraziləri arasında humanitar yüklərin tranzitini təmin etməyə davam edir. Bu barədə Sputnik Azərbaycan Rusiya Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir.



”Sosial obyektlər və yaşayış evlərinin elektrik və su ilə təminatının bərpası üçün Humanitar Yardım Mərkəzinin 25 ”KamAZ” markalı hərbi avtomobil və onları müşayiət edən maşınlardan ibarət kolonu Kəlbəcər rayonuna təxminən 185 ton həcmində yük çatdırıb. Yük generator stansiyaları, elektrik avadanlıqları, dəmir-beton konstruksiyaları və tikinti materiallarından ibarət olub”, - deyə məlumatda bildirilir.

Qeyd edək ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Qarabağ üzrə üçtərəfli bəyanatı 2020-ci il noyabrın 10-da imzalanıb. Bəyanata əsasən, Dağlıq Qarabağ münaqişə zonasında 2020-ci il noyabrın 10-u saat 00:00-dan etibarən bütün hərbi əməliyyatların dayandırılması və tam atəşkəs barədə razılıq əldə olunub.

Bəyanata görə, Ağdam rayonu 2020-ci il noyabrın 20-də, Kəlbəcər rayonu noyabrın 25-də *(ilkin olaraq noyabrın 15-i nəzərdə tutulurdu),* Laçın rayonu isə dekabrın 1-də Azərbaycana qaytarılıb. Bununla yanaşı, təmas xətti və Laçın dəhlizi boyunca Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilir. Paralel olaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən çıxarılmalıdır.

Tərəflərin razılığına əsasən, yaxın üç ildə Laçın dəhlizi üzrə Xankəndi ilə Ermənistanın əlaqəsini təmin edəcək yeni hərəkət marşrutunun tikintisinin planı müəyyən olunacaq. Daxili məcburi köçkünlər və qaçqınlar BMT-nin Qaçqınların işləri üzrə Ali Komissarının nəzarəti altında Dağlıq Qarabağın və ətraf rayonların ərazisinə qayıdacaqlar. İqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunacağı gözlənilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki tərəfə maneəsiz hərəkətinin təşkil olunması məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsini təmin edəcək.

# Vaşinqtonun Ankaraya münasibəti dəyişməyəcək



## “Amerikanın regionda istifadə etdiyi əsas güc terrorçu qruplaşmalardır”

**Türkiyə ilə ABŞ arasında münasibətlər yenidən kəskinləşib. İraqın şimalında 13 silahsız türkün PKK və PYD terrorçu qruplaşmaları tərəfindən qətlə yetirilməsinə Amerika Prezidenti Cozef Baydenin şübhəli yanaşması, hadisəni törədən terrorçuları birbaşa dilə gətirməməsi iki ölkə arasında yeni gərginliyə səbəb olub. Vaşinqtonun hadisəyə müəmmalı yanaşması qarşılıqlı ittihamlara yol açıb.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Amerikanı PKK terror təşkilatının arxasında durmaqda ittiham edib: ”Əgər biz sizinlə NATO-da birlikdəyiksə, əməkdaşlığımızı davam etdirəcəyiksə, bizə münasibətdə səmimi olmalısınız”. Bundan sonra Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ABŞ-ın dövlət katibi Entoni Blinken arasında telefon danışığı baş tutub. Telefon danışığında terror təşkilatları ilə mübarizə, S-400 mövzusu, Suriya və Şərqi Aralıq dənizindəki vəziyyətlər müzakirə edilib. Çavuşoğlu ABŞ tərəfinin son açıqlamalarının Türkiyədə yaratdığı rahatsızlığı dilə gətirib. Xatırladaq ki, Dövlət Departamenti hadisənin PKK tərəfindən törədildiyinə şübhə ilə yanaşmayıb. Rəsmi Ankaranın etiraz və diplomatik yolla təzyiqlərindən sonra dövlət katibi Entoni Blenkin 13 günahsız insanın qətlində PKK-nın məsuliyyət daşıdığını bildirib. Dövlət rəsmiləri gələcək günlərdə gündəlikdə olan bütün məsələlərlə bağlı geniş şəkildə müzakirə aparmaq barədə razılığa gəliblər.

**İki ölkə arasındakı münasibətləri ”Şərq”ə dəyərləndirən politoloq Turan Rzayev bildirib ki, Türkiyə terrorçu qruplaşmalara qarşı həm ölkə daxilində, həm də xaricdə ciddi mübarizə aparır. Analitikin sözlərinə görə, son dönəmdə PKK və PYD-yə qarşı hərbi əməliyyatlarda ciddi uğurlar əldə olunub:** ”Ötən əsrin sonlarından etibarən PKK Türkiyənin başına bəla olub. Terrorçu qruplaşmanın maliyyələşməsini əvvəllər SSRİ təmin edirdisə, sonralar bu missiyanı ABŞ və digər Qərb ölkələri öz üzərlərinə götürdü. Reallıq odur ki, Amerika ”kürd xalqı” adı ilə PKK və PYD-yə dəstək göstərir. Bunun ən bariz nümunəsi Türkiyənin israrlarına rəğmən, həmin təşkilatların terrorçu qurumlar olaraq qəbul edilməməsidir. Həmçinin, Suriya və İraqda İŞİD-lə mübarizə zamanı peşmərgə gücləri ”qəhrəman” obrazında təqdim olunurdu. İndiki halda PKK-ya qarşı mübarizə davam etməlidir. Türkiyədə siyasi fəaliyyət göstərən Xalqların Demokratik Partiyasının (HDP) terrorçularla əlbir olması, birgə fəaliyyəti hamıya məlumdur. HDP Qərblə PKK arasında körpü rolunu oynayır. ABŞ və Avropa ölkələrinin terrorçulara dəstəyi partiya üzərindən həyata keçirilir. Türkiyə ilk növbədə bu dəhlizi sıradan çıxartmalıdır. Ümumiyyətlə, terrora dəstək verən bütün partiyaların fəaliyyəti ciddi araşdırılmalıdır”.

**T.Rzayev vurğulayıb ki, Qərb dövlətləri 13 türk vətəndaşının öldürülməsi ilə bağlı Ankaraya başsağlığı mesajı verməyib. Bu cür yanaşmanın özü həmin ölkələrin PKK-ya rəğbətindən qaynaqlanır:** ”Qərb dövlətləri terrorçu təşkilatın qətliamlarına göz yumur. Türkiyəni yaxın tərəfdaş adlandıran Rusiyadan da hansısa açıqlama gəlməyib. Çavuşoğlu ilə Blinken arasında telefon danışığı Ankaranın Vaşinqtonu sərt tənqid etməsi fonunda baş tutdu. Məncə, bu, təsadüf deyildi. Çünki Ağ Evdən gələn açıqlamalar müttəfiq dövlətə yaraşmayan tərzdə idi. Amerika ilk açıqlamalarında 13 türkü PKK-nın öldürməsinə şübhə ilə yanaşırdı. Bu səbəbdən nazirlər arasında telefon danışığı gərgin keçib. Bayden Administrasiyası da Türkiyəyə ”S 400”dən imtina etməyi ”məsləhət” görür. Halbuki, Ankara bundan vaz keçməyəcəyini dəfələrlə açıqlayıb. Məsələ ondadır ki, Türkiyə ABŞ-ın şərtlərini yerinə yetirsə belə Vaşinqtonun türklərə münasibəti dəyişməyəcək. Ankaranı tənqid etmək üçün müxtəlif bəhanələr tapılacaq. Amerikanın PYD-yə dəstəyi isə davam edəcək. Ağ Evin Yaxın Şərq siyasəti hələ də aktualdır və Amerikanın regionda istifadə etdiyi əsas güc terrorçu qruplaşmalardır”.

**İsmayıl Qocayev**

# Əfv gözlənilir

## Komissiyada 100-dən artıq müraciətə baxılıb



**Bu gün Azərbaycan Prezidenti yanında Əfv məsələləri Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.**

Bu barədə APA-ya komissiyanın üzvü Rəşad Məcid məlumat verib.

O bildirib ki, iclas çox məhsurdar keçib:

”İclası komissiyanın sədri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev aparıb. İclada ilk dəfə olaraq İnsan Hüquqları üzrə Ombudsman Səbinə Əliyeva da iştirak edib. Komissiyanın bütün üzvləri iclasda təmsil olunurdu. Müzakirələr aparıldı. Güman ki, bir neçə dəfə iclaslarımız olacaq. Təxminən bu gün 100-dən artıq müraciətə baxıldı. Komissiya ardıcıl və məhsuldar işləyərək Novruz bayramına qədər müraciətlərə baxaraq yekunlaşdıracaq”.

Hüquq müdafiəçisi Novella Cəfəroğlu da ”Şərq”ə açıqlamasında bayram ərəfəsində məhkumların sevinəcəyini istisna etmədiyini dedi: ”Bizə çatan məlumata görə, əfv olacaq. Əslində dəqiq bir söz deməyə qorxuruq. Lakin iclas keçirilirsə, deməli, fərman imzalanacaq”.

# Qərar qəbul olunub

## Gürcüstan parlamentində Azərbaycan Milli Məclisi ilə dostluq qrupu yaradılıb

**Gürcüstan parlamentində Azərbaycan ilə dostluq qrupu yaradılıb. Qrupda 36 deputat yer alacaq.**

Azərtac xəbər verir ki, bununla əlaqədar Gürcüstan parlamentinin fevralın 16-da keçirilən iclasında parlamentlərarası dostluq qrupları haqqında qərar qəbul olunub.

Qərar layihəsində deyilir ki, Azərbaycan Respublikası Milli Məclisi ilə dostluq qrupuna parlamentin vitse-spiker Kaxaber Kuçava rəhbərlik edəcək. Qrupun 36 üzvü arasında azərbaycanlı deputatlar Zaur Dərgallı və Savalan Mirzəyevin də adları var.

*Qeyd edək ki, Azərbaycan Milli Məclisi ilə əvvəlki qrupda 62 deputat yer alıb. K.Kuçava həmin qrupun da rəhbəri olub.*

# Delimitasiya prosesi gedir

## “Qafanda 20, Mehridə 8, Gorusda 10 kilometr geri çəkilmə var”



**“Erməni hərbçilərinin boşaltdığı ərazilərdə isə rus sülhməramlıları yerləşir”**

**Ermənistanın müxalifət partiyası Paşinyan hökumətinin Azərbaycanla gizli sərhəd razılaşmasına getməsindən şübhələnir. Bu barədə ”armenews.com” saytında məqalə dərc olunub.**

Həmin partiya Ermənistanın hazırkı hökumətindən Ermənistan-Azərbaycan sərhədlərindəki delimitasiya (Bağlanmış müqaviləyə uyğun təsvir edilməklə və xəritədə qeyd olunmaqla dövlət sərhədinin müəyyənləşdirilməsi) prosesi ilə bağlı izahat tələb edib.

Tələbdə bildirilib ki, Qarabağda gedən müharibədən sonra imzalanan 10 noyabr sazişinin detalları müxalifətə və eləcə də ictimaiyyətə açıqlansın. Bu müxalif partiya delimitasiya prosesinin Ermənistanın cənub-şərqində yerləşən Sünik vilayəti boyunca aparıldığını iddia edir. Bildirilib ki, həmin zonada Ermənistan hərbi birləşmələri bu ölkənin içərisinə doğru geri çəkilib.

Belə bir məlumatı müxalif mətbuatın yazması maraqlı dilemma ortaya çıxarır: iddia həqiqətdir, yoxsa ittiham?



**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəylinin fikrincə, narazı qüvvələr yaranan şəraitdən istifadə edirlər:** ”Bəli, delimitasiya prosesi gedir. Hətta erməni mətbuatı bu barədə konkret faktlar təqdim edir. Yayılan informasiyaya görə, Qafanda 20, Mehridə 7-8, Gorusda 10 kilometr geri çəkilmə var. Erməni hərbçilərinin boşaltdığı ərazilərdə isə rus sülhməramlıları yerləşir. Əlbəttə, Ermənistan hakimiyyəti bu prosesi razılaşdırılmış əsaslarla həyata keçirir. Lakin məsələnin bu qədər qabardılması və Paşinyanın Azərbaycanla razılığa gedibmiş kimi göstərilməsi məqsədlidir. Hədəf baş naziri devirməkdir. Xüsusilə nəzərə almaq lazımdır ki, Paşinyanın media üzərində nəzarəti yoxdur və bunları yazan müxalif mətbuatıdır”.

**Ə.Əlibəylinin fikrincə, narazı qüvvələr arzularına çata bilməyəcəklər**: ”Düzdür, etirazçılar var. Ancaq bundan əvvəl müxalifətin 17 partiyasının keçirdiyi mitinq də nəticəsiz qalmışdı. Ümumiyyətlə, Paşinyanın tərəfdarları əleyhdarlarından daha çoxdur. Bəlkə hərbi çevriliş yolu ilə onu devirmək olar. Hərçənd, buna da inanmıram. Koçaryanın siyasi canlanmasının nə ilə nəticələnəcəyi də sual altındadır”.

**Kənan Novruzov**

# Nazirlər Bakıda toplaşır

## Türkiyə və Gürcüstanın XİN rəhbərləri Azərbaycana səfər edəcəklər



### Masada müzakirə olunan xeyli məsələlər var

**Cari ilin 18 fevral tarixində Türkiyə Respublikasının xarici işlər naziri cənab Mövlüd Çavuşoğlunun, 19 fevral tarixində isə Gürcüstanın Baş nazirinin müavini-xarici işlər naziri cənab David Zalkalianinin Azərbaycana rəsmi səfərləri nəzərdə tutulub.**

Bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, bu ilin 19 fevral tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Gürcüstanın Baş nazirinin müavini-xarici işlər naziri David Zalkaliani və Türkiyə Respublikasının xarici işlər naziri Mövlüd Çavuşoğlunun iştirakı ilə 9-cu üçtərəfli görüşün keçirilməsi planlaşdırılır.

**Politoloq Zaur Məmmədov səfər çərçivəsində müzakirə ediləcək məsələləri "Şərq"ə sadalayıb.**

Onun sözlərinə görə, son zamanlar Azərbaycan və Türkiyə rəsmilərinin qarşılıqlı səfərləri aktivləşib: "Bunun da əsas səbəbi tərəflər arasında Cənubi Qafqazın gələcəyi ilə bağlı dərin əməkdaşlığın təzahür etməsidir. Çavuşoğlu son 6 ayda ölkəmizə ən çox səfər edən nazirdir. Çox güman ki, səfər əsnasında həm Türkiyə şirkətlərinin Azərbaycana gəlişi, həm də Türkiyə-Azərbaycan arasında yeni nəqliyyat layihələri və infrastrukturunun reallaşması ilə bağlı müzakirələr olacaq".

Z.Məmmədov vurğulayıb ki, səfər zamanı əsas müzakirə predmetindən biri də Qarabağın gələcəyi, ermənilərin kompakt yaşadığı bölgələr və Rusiyanın Azərbaycandakı fəaliyyətidir: "Hər halda Tovuz təxribatından sonra qardaş ölkə ilə ciddi şəkildə yaxınlaşmanın şahidi olduq. Yaxın zamanlarda Türkiyə-Azərbaycan və Türkiyə-Rusiya arasında bağlı qapılar arxasında müzakirə edilən bəzi məsələlərlə bağlı qərarların ictimaiyyətə açıqlanmasının şahidi olacağıq".

**Yeganə Bayramova**

## Vətən müharibəsində itkin düşən daha bir hərbçimiz şəhid olub



**Vətən müharibəsində itkin düşən daha bir hərbçimizin şəhid olması xəbəri gəlib.**

Döyüşlərin ilk günündə itkin düşən kiçik çavuş 2001-ci il təvəllüdlü Anar Nurullayevin şəhid olduğu müəyyənləşib.

Bu barədə Trend-ə onun yaxınları bildiriblər.

Sabah şəhid Anar Nurullayev doğulduğu Sabirabad rayonu Osmanlı kəndində dəfn ediləcək.

## 140 nəfər yoluxub, 2 nəfər vəfat edib

### Azərbaycanda 191 nəfər koronavirusdan sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 140 yeni yoluxma faktı qeydə alınıb, 191 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 232 337 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 226 951 nəfər müalicə olunaraq sağalıb, 3 185 nəfər vəfat edib, aktiv xəstə sayı 2 201 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 631, ötən müddət ərzində isə ümumilikdə 2 513 636 test aparılıb.

# Kasıb dövlətləri daha ağır günlər gözləyir

## Koronavirusu yox etmək üçün vaksinlər ədalətli bölüşdürülməlidir

**"Azərbaycan yalnız ölkə daxilində deyil, eyni zamanda qlobal səviyyədə də koronavirusla mübarizəyə mühüm töhfə verir". Bunu Prezidentin köməkçisi Hikmət Hacıyev "COVİD-19 pandemiyasının və vaksinasiyanın geopolitikası" adlı konfransda deyib. H.Hacıyev vurğulayıb ki, BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsü məhz Prezident İlham Əliyev tərəfindən irəli sürüldü və dəstəkləndi.**

Vaksinasiya haqqında danışan PA rəsmisi qeyd edib ki, bəzi zəngin ölkələr tələb olunduğundan iki dəfə çox vaksin alırlar: "Təəssüflər olsun ki, bu cür addımlar kasıb ölkələrin vaksin almaq imkanlarını məhdudlaşdırır. Kasıb ölkələrin də vaksinlərə çıxışını təmin etmək lazımdır. Biz bütün BMT ölkələri arasında əməkdaşlığı gücləndirməklə bu bəlaya qalib gələ bilərik". Xatırladaq ki, Prezident İlham Əliyev bir müddət əvvəl BMT-nin Baş Assambleyasındakı çıxışında da peyvəndlərin ədalətli bölgüsünün vacibliyini diqqətə çatdırmış, zəngin ölkələrin kasıb dövlətlərin vətəndaşları üçün peyvəndlər almasını təklif etmişdi. Ölkə başçısı vurğulamışdı ki, inkişaf etmiş ölkələr dünya əhalisinin 14 faizini təşkil edir. Halbuki, inkişaf etmiş ölkələr bu günə qədər dünya vaksinlərinin 53 faizini sifariş ediblər: "Bu, ədalətsizlik, qeyri-bərabərlikdir. "Moderna" vaksini var, səhv etmirəmsə, Amerika istehsalıdır. "Moderna" vaksininin 98 faizini zəngin ölkələr sifariş ediblər. "Pfizer" Avropa istehsalı vaksinidir. "Pfizer" vaksininin 96 faizini zəngin ölkələr sifariş ediblər. Yaxşı, bəs kasıb ölkələrin vətəndaşları nə etməlidirlər, xəstələnməlidirlər? Onlar xəstələnəndə onların ölmək ehtimalı daha böyükdür. Çünki o ölkələrdə səhiyyə sistemi inkişaf etmiş ölkələrdən müqayisə edilməz dərəcədə geridə qalıb".



### "Dünya ölkələri anlamalıdırlar ki, bu cür addımlarla pandemiya bəlasına qalib gəlmək qeyri-mümkün olacaq"

**Millət vəkili Cavid Osmanov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan sadəcə koronavirus və vaksinasiyasında deyil, bütün məsələlərdə ədalətin yanında olub.** Deputatın sözlərinə görə, Azərbaycan rəhbərliyi dünyada sülhün, əmin-amanlığın və ədalətin bərqərar olması üçün dəfələrlə çağırışlar edib, mühüm təşəbbüslər göstərib: "Pandemiyaya qarşı mübarizədə Azərbaycanın atdığı addımlar ÜST tərəfindən dəfələrlə yüksək qiymətləndirilib. Qurum bir sıra xarici ölkələrə nümunə kimi Azərbaycan modelindən istifadəni tövsiyə edib. Dövlətimiz sadəcə ölkədaxili deyil, regional və qlobal səviyyədə təşəbbüslər irəli sürüb. Çoxsaylı ölkələrin və beynəlxalq təşkilatların koronavirusla bağlı mübarizəyə həsr olunmuş konfransları məhz cənab Prezidentimizin təşəbbüsü ilə keçirilib. Azərbaycan pandemiya dönəmində 30-dan çox ölkəyə müxtəlif humanitar yardımlar göstərdi. Eyni zamanda ÜST-yə iki dəfə 5 milyon dollar məbləğində vəsait köçürdü. Dövlət başçısı İlham Əliyev vaksinasiya prosesində inkişaf etmiş ölkələri nümunəvi addım atmağa səslədi. Prezident çağırış etdi ki, kasıb ölkələrin xalqları da vaksinlərlə təmin olunmalıdır. Dövlət başçısı vaksinlərin paylanmasında qeyri-ədalətli bölgünün olmasını vurğulayaraq, inkişaf etmiş zəngin dövlətləri əhalinin sayından artıq vaksinlər sifariş verməməyə çağırdı. Hətta Kanada timsalında misallarla göstərdi ki, ötən müddət ərzində bir yox, bir neçə dəfə əhalinin sayından artıq vaksinlər sifariş olunub".

Parlament üzvünün sözlərinə görə, dünya ölkələri anlamalıdırlar ki, bu cür addımlarla pandemiya bəlasına qalib gəlmək qeyri-mümkün olacaq: "Virusu yox etmək üçün birlikdə mübarizə aparmaq, vaksinlərin bölüşdürülməsində ədalətli mövqe tutmaq əsas şərtdir. Nəzərə alaq ki, vaksinlər virusu yox etmir, sadəcə qabaqlayıcı tədbir kimi nəzərdə tutulur. Əgər hansısa kasıb dövlət öz xalqının vaksinasiyasını təşkil edə bilməsə, vaksinə qarşı ümumdünya immuniteti yaratmaq mümkün olmayacaq. Belə olan təqdirdə zəif iqtisadiyyata malik ölkələrin xalqları böyük əziyyət çəkəcəklər və dünya insan tələfatları ilə üzləşəcək. O baxımdan vaksinlər ədalətlə paylanmalıdır. Zəngin ölkələr isə sadəcə özləri üçün deyil, digər kasıb dövlətlərin xalqları üçün də vaksinlərin alınmasına maddi cəhətdən dəstək olmalıdırlar".

**İsmayıl Qocayev**

# “Vətəndaş jurnalistikası”nı qəbul etmirəm, çünki...”



## Elçin Şıxlı: “...Jurnalistika peşədirsə, onda bu işlə peşəkar məşğul olmalıdır”

**“Vətəndaş jurnalistikası” anlayışı son vaxtlar mediada ”ayaq açıb yeriyir”. Bu termini qəbul edənlər də var, etməyənlər də. Hərəsi özünə görə arqument sadalayır.**

Kimi ”dünya dəyişir, İKT-nin inkişafından geri qalmaq olmaz” deyir, kimi də dəyərlərə və ənənələrə sadiqliyini ifadə edir. Məsələn, jurnalist Anar Həsənovun məsələ ilə bağlı fikirləri belədir: ”Xahiş edirəm ”vətəndaş jurnalistikası” yazmayın, işlətməyin bu yanaşmanı. Küçə və tin uşaqlarının fəallığını 4 və bəzən 6, 9 il jurnalistika təhsili olanlara bərabər tutmayaq. Vətəndaş tarixşünaslığı, tibbi, fizikası olmadığı kimi jurnalistikası da yoxdur. ”Mediafəal” deyin elələrinə”.

Elə isə niyə, az qala, bütün media ədəbiyyatlarında bu terminə rast gəlirik? Niyə onun xüsusiyyətlərini öyrənirik?

**Bu barədə ”Şərq”ə danışan ”Ayna-Zerkalo” qəzetinin baş redaktoru Elçin Şıxlı** məsələyə belə münasibət bildirdi: ”Düzdür, ”Vətəndaş jurnalistikası” termini var. Hətta Qərbdə də vətəndaş jurnalistikasına xeyli yer verirlər. Lakin mən qəbul etmirəm. Əgər jurnalistika peşədirsə, onda bu işlə peşəkar məşğul olmalıdır. Yox, əgər, peşə deyilsə, adını nə istəyirsiniz qoyun. Azərbaycan Respublikası Konstitusiyasında hər kəsin informasiya almaq, axtarmaq, yaymaq hüququ təsbit edilib. Amma bu o demək deyil ki, hər kəs öz hüququndan düzgün istifadə edir. Ən ciddi məsələ xəbəri yaymaqdır. Peşəkar jurnalist informasiyanı tirajlayanda bunun səbəbini də izah edir. Siz dediyiniz vətəndaş jurnalistlər isə bu və ya digər məlumatı niyə ictimailəşdirdiklərini, onun cəmiyyətə nə verdiyini çox vaxt izah etmirlər. Ya da bunu sadəcə bacarmırlar. Nəticədə yayılan kiçik bir informasiya cəmiyyətdə ciddi ajiotaj yarada bilir”.

### “Xəbərin ötürülməsində keyfiyyət yoxdursa, deməli bu, jurnalistika yox, cinayətdir”

**E.Şıxlı, həmçinin peşəkarlığa verilən tələblərə də toxundu:** ”Sözsüz ki, biz keyfiyyətli jurnalistikadan danışırıq. Xəbərin ötürülməsində keyfiyyət yoxdursa, deməli bu, jurnalistika yox, cinayətdir. Məlumat ən azı iki mənbədən dəqiqləşməli və mütləq məsələyə dair bütün tərəflərin mövqeyi öyrənilməli, göstərilməlidir. Mətbuatda ”saxta xəbərlərə” yer olmamalıdır. Həmişə informasiyanın məhdudlaşdırılmasının əleyhinə olmuşam. Fəqət, xəbər keyfiyyətli və peşəkar olmalıdır. Əks halda mediada indiki kimi xaos yaranacaq və hər yerindən duran özünü jurnalist elan edəcək”.

**Kənan Novruzov**

# Tariximizdə ilk dəfə...

## Azərbaycanlı ekspert BMT-də vəzifəyə təyin olundu



**Azərbaycan tarixində ilk dəfə ölkənin beynəlxalq hüquq üzrə eksperti BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəsinin sədr müavini vəzifəsinə seçilib**

Hüquq üzrə fəlsəfə doktoru Elgün Səfərov BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəsinin 78-ci sessiyasında sədr müavini vəzifəsinə seçilib.

Sputnik Azərbaycan xəbər verir ki, Elgün Səfərov 18 ilə yaxın insan hüquq və azadlıqlarının təmin edilməsi, beynəlxalq hüquq, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, beynəlxalq humanitar hüquq, qadın və uşaq hüquqlarının müdafiəsi və digər sahələr üzrə BMT-də, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təşkilatlarda ölkəni təmsil edir.

Ekspert uzun illər ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Avropa Şurasının Gender bərabərliyi Komissiyasının (2007-2018-ci illər) fəaliyyətində iştirak edib. E.Səfərov Bakı Dövlət Universitetində və Dövlət Gömrük Akademiyasında beynəlxalq hüquq, ailə hüququ, beynəlxalq humanitar huquq və digər fənnləri tədris edib. Ekspertin ingilis, rus və azərbaycan dilində 50-dən çox elmi araşdırma və tədqiqatları çap edilib.

# “İndi nə qondarma respublika var, nə də status”

## “Araik bizə minaların basdırıldığı ərazilərin xəritəsini də verə bilər”



Bu günlərdə Ermənistan tərəfi xəbər yaydı ki, Qarabağdakı qondarma rejimin rəhbəri Araik Arutyunyan Azərbaycanın rəsmi nümayəndəsi ilə görüşüb. Görüşdə Rusiya sülhməramlı qüvvələrinin komandanı, general Rüstəm Muradov və Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Armen Abazyan iştirak ediblər.

Erməni tərəfi görüşdə ”əsir və itkin düşmüş şəxslərlə bağlı məsələlərin müzakirə olunduğunu” bildirib. Lakin Azərbaycan tərəfdən görüşdə kimin iştirak etdiyi açıqlanmayıb.

Rəsmi Bakıdan isə bu görüşlə bağlı hələlik məlumat verilməyib. Hərçənd xəbər sosial şəbəkələrdə və ekspertlər arasında müəyyən ajiotaja səbəb olub. Bir çoxları bu görüşü ”separatçıların lideri ilə rəsmi danışıqların başlanması” kimi yozublar. Yaxud Azərbaycan hüquq-mühafizə orqanlarının Araik Arutyunyanı axtarışa verdiyi halda onunla görüş faktının nə məna daşıdığı haqda suallar səslənir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev məlum görüş barədə fikirlərini ”Şərq”lə bölüşərkən söylədi ki, məsələyə soyuqqanlı yanaşmaq lazımdır:** ”Əgər görüş barədə yayılan informasiya dəqiqdirsə, bunu faciəyə çevirməyə ehtiyac yoxdur. İndi nə qondarma respublika var, nə də status.

Deməli, Araik Arutyunyan heç bir qurumun rəhbəri deyil. O, sadəcə terrorçuların başçısıdır. Törətdiyi cinayətlərə görə həmin adam barəsində qanunvericiliyin 8 maddəsi ilə iş açılıb. Yəni Araik törətdiyi əməllərə görə məsuliyyət daşıyır. İndi bizə lazım olan törədilən cinayətlərin nəticələrini aradan qaldırmaqdır. Arutyunyan regiondakı PKK, ASALA terrorçularını, erməni silahlı qüvvələrinin ”törtöküntülərini” yaxşı tanıyır, onların harada olduğunu bilir. Həmçinin o, bizə minaların basdırıldığı ərazilərin xəritəsini də verə bilər. Azərbaycan Qanunvericiliyinə görə, cinayətkar cinayətlərin üstünün açılmasına kömək edərsə, onun haqqında müəyyən güzəştlərin olması mümkündür. Yəni Araik də bunları nəzərə alıb cinayətlərinin nəticələrinin aradan qaldırılmasına yardımçı ola bilər”.

**Kənan**



**İran və Rusiyanın Hind okeanının şimal hissəsində keçirməli olduğu hərbi-dəniz təlimlərinə start verilib. Bu barədə Rusiyanın Tehranda səfirliyinin mətbuat-attaşesi Maksim Suslov məlumat verib. Hərbi manevrlərin 16 fevralda başlayacağı gözlənilsə də, təlimlər bir gün əvvələ çəkilib.**

İran ordusu komandirinin müavini və Baş qərargah rəisi Həbibullah Sayarinin sözlərinə görə, hərbi təlimlər Hind Okeanının təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Onu da vurğulayaq ki, budəfəki təlimlərdə Çin iştirak etməyib. Halbuki, 2019-cu ilin dekabr ayının sonunda Hind okeanı və Oman körfəzində İran, Rusiya və Çinin birgə hərbi-dəniz təlimləri keçirilmişdi. İstənilən hərbi təlimlər həm bir sıra ölkələrin bir cəbhədə olduğunu göstərir, həm də qarşı qütblərə ”əzələ nümayişi” kimi qələmə verilir. Xüsusən, bölgənin iki əsas gücünün - Rusiya və İranın indiki məqamda hərbi təlimlərə başlaması heç də təsadüfi sayılmır.

# Rusiya və İranın böyük əndişəsi var

## Baydenin daha sərt addımlarına şahid olacağıq

### “Rusiya və İranın Hind okeanında birgə hərbi təlimlərə başlaması ABŞ-ın bölgədə genişlənməsinə qarşı güc nümayişidir”

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə deyib ki, Rusiya və İranın Hind okeanında birgə hərbi təlimlərə başlaması ABŞ-ın bölgədə genişlənməsinə qarşı güc nümayişidir.** Siyasi şərhçinin sözlərinə görə, bu ərazilər Çinin maraqları çərçivəsində olsa da, Pekin hərbi təlimlərdən imtina edib: ”Görünür, bölgədəki vəziyyətdən daha çox İran və Rusiya narahatdır: ”Təlim ”Təhlükəsizlik Kəməri” adı daşıyır. Məqsəd Somali yarımadasından Hind-Çin yarımadasına qədər təhlükəsizlik zolağı çəkərək bölgəyə nəzarəti ələ keçirməkdir. Çinin kənardan müşayiət etməsi belə qənaətə gəlməyə əsas verir ki, Rusiya və İranın cəhdlərinə baxmayaraq, Çin və ABŞ regiondakı hərbi üstünlüklərini əldən verməyəcək. İran bütün sərhədləri boyu NATO bazaları ilə nəzarətdə saxlanılır. Rusiyanın isə bu ərazilərdə dominant ölkə olmaq cəhdi perspektivsizdir. Bunun üçün Rusiyanın yetərincə dəniz və hava qüvvələri yoxdur”.

*Analitik vurğulayıb ki, Rusiya və İran iqtisadiyyatının 60 faizi neftdən asılı olduğu üçün hazırda neft bazarındakı vəziyyət bu ölkələri çıxılmaz duruma salıb:* ”ABŞ-da siyasi hakimiyyətin dəyişməsindən sonra Co Bayden hakimiyyətinin insan haqları daha çox tapdanan ölkələrə təzyiq göstərəcəyi ilə bağlı proqnozlar özünü doğruldur. Fikrimcə, Rusiya və İran ciddi sanksiyalarla üzləşəcək. İndiyə qədər Obama və Tramp hökumətlərinin mülayim sanksiyaları Baydenin qətiyyətli sərt addımları ilə əvəz olunacaq”.

**İsmayıl Qocayev**

# BAO üzvləri Xocalıya getmək istəyir

## Təşkilatçılar Zakir Həsənovdan kömək umur



Bütöv Azərbaycan Ocaqları (BAO) Xocalı soyqırımının ildönümü ərəfəsində ölkə rəhbərliyinə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova müraciət edib. Müraciətdə soyqırımın 29-cu ildönümü ilə bağlı bir sıra təkliflər yer alıb. BAO sədrinin müavini, türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə açıqlamasında bildirib ki, təmsil etdiyi qurum Xocalı soyqırımının budəfəki ildönümünü fərqli formada keçirmək arzusundadır:

"Bu il 26 fevralda Xocalı faciəsinin 29-cu ildönümü tamam olur. Xocalı faciəsi xalqımız və ümumiyyətlə bəşəriyyət tarixində mədəni insanlığa qarşı törədilmiş ən dəhşətli cinayətlərdən biridir. 1992-ci il fevralın 25-n 26-na keçən gecə təpədən dırnağadək silahlanmış erməni terrorçuları Xocalı şəhərinə qəflətən basqın edib, təxminən 613 nəfər dinc insanı vəhşicəsinə qətlə yetirib. Xocalıda 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini itirib, 130 uşaq isə valideynlərindən birindən məhrum olub. Həmçinin, 487 nəfər dinc sakin yaralanıb, 1275 nəfər əsir götürülüb, 150 nəfər isə itkin düşüb. İndiyədək azğın və məkrli erməni faşizmi qarşısında məğlub vəziyyətdə olan Azərbaycan xalqı hər il bu faciəni kütləvi yas və hüzn içərisində qeyd edib. Ancaq şükürlər olsun ki, Milli Ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımız azad olundu. 2020-ci il ən yeni tariximizə şanlı Qələbə ili kimi yazıldı. Bu möhtəşəm qələbənin əldə edilməsində bir çox vacib amillərlə yanaşı, daha bariz şəkildə özünü göstərən dövlət-xalq birliyinin müstəsna rolu ayrıca qeyd olunmalıdır. Azğın düşmənlərimizə göz dağı olan bu birliyin qorunub saxlanması, fikrimizcə, indiki dövrdə ən vacib vəzifələrimizdən biridir".

**F.Ələkbərli vurğulayıb ki, Bütöv Azərbaycan Ocaqlarının rəhbərliyi hesab edir ki, bu il Xocalı faciəsinin növbəti ildönümü ölkəmizdə həmişəkindən daha fərqli və özünəməxsus şəkildə qeyd edilməlidir:**

"Azərbaycanın birliyini və bütövlüyünü qarşısına başlıca məqsəd qoyan BAO üzvləri Xocalı faciəsinin ildönümünü, erməni faşizminin günahsız qurbanlarının xatirəsini 26 fevralda məhz Xocalı şəhərində, qalib ordumuzun əsgər və zabitləri ilə birlikdə yad etmək istəyir. Xahiş edirik ki, ölkə rəhbərliyi, müvafiq qurumlar bu işdə bizə lazımi kömək göstərsinlər, əlaqədar orqanlara göstəriş versinlər".

**İsmayıl**

## Ərdoğan Azərbaycanın UNESCO-dakı nümayəndələrinə təşəkkür edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan UNESCO-da Yunus Əmrənin vəfatının 700-cü ildönümünün qeyd olunması ilə əlaqədar Azərbaycanın UNESCO-dakı nümayəndələrinə təşəkkür edib.**

APA-nın yerli bürosunun xəbərinə görə, R.T.Ərdoğan Türkiyədə 2021-ci ilin "Bizim Yunus" ili olaraq elan edilməsilə əlaqədar keçirilən tədbirlər silsiləsinin açılış mərasimində danışarkən bunu bildirib.

Türkiyə Prezidenti deyib ki, Türkiyə Yunus Əmrəni bəşəriyyət üçün ortaq bir dəyər kimi təqdim etmək, eləcə də türk dilinin yaşamasında xidmətlərini dəyərləndirmək üçün, türk dilinin mədəniyyət dili olaraq doğru istifadəsinə dair ölkə daxilində və xaricdə silsilə tədbirlər keçiriləcək.

Türkiyə Prezidenti 1991-ci ilin UNESCO tərəfindən "Yunus Əmrə və sevgi ili" elan edilməsindən sonra bu il də UNESCO-da Yunus Əmrənin vəfatının 700-cü ildönümünün qeyd olunmasında xüsusilə Azərbaycan, Bosniya Herseqovina, Şimali Makedoniya və Özbəkistan təmsilçilərinin xidməti olduğunu bildirib.

*Qeyd edək ki, 2021-ci il Türkiyədə "İstiklal marşı", "Yunus Əmrə" və "Hacı Bektaş Vəli" ili elan olunub.*

# Metro, metro, yenə də metro...

## Avtobuslarda sərnişinlər biri-birinin belinə minir, hamı əsəbi, hamı narazıdır

Səhər saatlarında "M1a" xətt marşrutu ilə hərəkət edən avtobusun sürücüsü yanaşı zolaqda hərəkətdə olan həmkarını harayladı: "vəziyyət necədi?.. Planı qaldırdılar 218-ə! Axşçamacan neyləcəm?.." Belə olayların hər gün şahidi oluruq. İş gününün sonunda avtobuslara minmək üçün qladiatorluq edənlər məqsədlərinə nail olarolmaz sürücü ilə söz atışmasına çıxır: "az doldur avtobusu, nəfəsimiz kəsildi, ayaq qoymağa yer yoxdu.

Deyirlər, məsafə saxlayın. Belə yerdə məsafə saxlamaq olar?!. Virus varsa, bu basa-bas nədi?!." Yerdə qalıb hər vəchlə avtobusa təpinmək istəyənlərə də içəridəkilər aman vermir: "hara minirsən?!. Görmürsən yer yoxdu, güclə dayanmışıq burda?!." Aşağıdakı da boynunu uzadıb, "sən minmisən, mən də minmək istəyirəm. Mən də evimə getmək istəyirəm. 3-cü avtobusdu, gəlir, minə bilməmişəm!.." Sürücü isə məhz həmin o plan səbəbindən "bir az sıxlaşın, sıxlaşın!", qışqıra-qışqıra sərnişinləri lap "pressləyir". Bu, bizim paytaxtın günlük ictimai nəqliyyat mənzərəsidi. Və bu mənzərə, bu dözülməz hal nə az, nə çox - tam 1 ildir ki, davam edir. Aradakı SMS icazəli vaxtları hesaba almasaq. Bakı Metropoliteni isə məzuniyyətə çıxıb. Sanki bu şəhərdə metro adında nəqliyyat vasitəsi heç olmayıb. "Metro nə zaman açılacaq" sorğusuna da "Operativ Qərargah qərar verir", cavabı gəlir. Görəsən, Operativ Qərargahın, ya da Nazirlər Kabinetinin metronun açılmasına icazə verməsi üçün hansı şərtlər olmalıdır? Şükürlər olsun, yoluxma sayı azalıb, sağalanların sayı yüksəkdir, ölüm sayı aşağıdır, SMS icazə ləğv edilib, əksər iş yerləri açılıb, əyani dərslər bərpa olunub, həm orta, həm də ali məktəblərdə (növbəli prinsiplə), deməli, hazırda ictimai nəqliyyatdan istifadə edənlərin sayı əvvəlki dövrlə müqayisədə xeyli artıb. Bunu anlamaq üçün sərnişinlərin avtobuslarda bir-birinin belinə minməsini, dayanacaqlardakı sıxlığı əyani müşahidə etməyə lüzum da yoxdur. Adi məntiq bunu diktə edir. Amma yoluxma riskinin artmasına və nəqliyyata cavabdeh olanlar deyəsən, məntiqi düçüncədən uzaqdırlar. Onlar daha çox iqtisadi düçüncələrlə hərəkət edir və gəlir barədə düşünürlər. Ələvə xətt avtobuslarına plan qoyan sahibkarlar kimi. Yeri gəlmişkən, əlavə xətt avtobuslarından qazanılan pullardan görəsən, dövlət büdcəsinə az da olsa ödənilirmi? Yoxsa bu pullar da "sahibsiz" parklanma yerlərindən əldə edilən pullar kimi kimlərinsə şəxsi cibinə axır?

**Nəqliyyat məsələləri üzrə ekspert, "Avtosfer.az" saytının baş redaktoru Elməddin Muradlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, təhlükəsizlik tədbirləri gücləndirilməklə metropolitenin fəaliyyəti bərpa edilməlidir:**

- Metroda havalandırma sistemi qaydasında qurulmadığından onun fəaliyyətini bərpa edə bilmirlər. Avtobuslarda hədsiz sıxlıqdır, sərnişinlərin narazılığı da haqlıdır. Metro fəaliyyət göstərsə, sərnişinlər daha az vaxt itkisinə məruz qalar. Metro ilə 25 dəqiqəyə qət etdikləri məsafəni avtobusla 2 saata getməzlər. Metronun 1 qatarı 5 vaqondan ibarətdir. Bir qatar 3 avtobus tutumu qədər sərnişin daşıyır. İnterval da 2,5-3 dəqiqə arası olur. Belə vəziyyət daha az təhlükəlidir, nəinki sıxlıq, basabas şəraitində, hava almağın qeyri-mümkün olduğu vəziyyətdə saatlarla avtobuslarda hərəkət etmək. Bu, sərnişinlərin büdcəsinə də ziyandır. Sərnişin 1 gediş haqqı əvəzinə 2-3 ödəmə etmək məcburiyyətindədir. Metro stansiyalarda sıxlığın yaranmamasını tənzimləmək də olar. Platformada sərnişin sıxlığı müşahidə edildiyi zaman stansiyaya girişi qısa müddətə ləngitmək, seyrəklik yarandıqda sərnişinləri yenidən içəri almaq da mümkündür. Amma bunları etməyi düşünmürlər,



### Neçə illərdir ki, ictimai nəqliyyatdakı problemlər həllini tapmayıb

özlərini çətinə salmaq istəmirlər. Dolayı yolla etiraf edirlər ki, metro risklidir, çünki havalandırma sistemi normal işləmir. Nəticədə ictimai nəqliyyatda - avtobuslarda xaotik vəziyyət yaranır. Avtobuslarla pandemiyadan əvvəl gün ərzində 2 milyon 200 min sərnişin daşınırdı. 2100 avtobus vardı. Metro ilə təxminən 1 milyon sərnişin. İndi metronun sərnişinləri də avtobuslardan istifadə edir. Deməli, 2 milyonun üzərinə 1 milyon da gəlib. Bu qədər sərnişini daşımaq üçün azı 2.500 avtobus lazımdı. Amma bu qədər avtobus yoxdur. Ona görə də belə dözülməz vəziyyətdir. Həm sərnişin sıxlığı, həm yollarda sıxlıq, gecikmələrə səbəb olur. Sıxlıq ikiqat artır. Hesab edirəm ki, təhlükəsizlik qaydalarına riayət etməklə metropolitenin fəaliyyətini bərpa etmək mümkündür.

**E.Muradlı metro əvəzləyici ekspress avtobuslara "dəstək" məqsədilə xəttə buraxılan avtobusların plan söhbətinə gəlincə, bu problemin özəl şirkətlərlə bağlı olduğunu dedi:**

- Onlar özəl daşıyıcı şirkətlərdir. Və xaotik şəkildə fəaliyyət göstərirlər. Kartla işləyən avtobuslarda görürük ki, problem yaşanmır. Bu daşıyıcılar əmək haqqı sisteminə keçib və planı yığmaq üçün daha çox sərnişin daşımaq kimi problemləri də yoxdur. Bu problem kartsız işləyən avtobuslardadır. Onlardı sərnişin ovuna çıxan, dayanacaqlardan kənar avtobusu saxlayıb sərnişin toplayan, sərnişin sıxlığından sevinənlər. Amma vəziyyətə nəzarət etməli olanlar anlamalıdır ki, belə vəziyyət daha çox yoluxmaya səbəb olur və bundan dövlət ziyan çəkir. Bakı Nəqliyyat Agentliyi nəzarət mexanizmini tətbiq etməlidir. Azərbaycan inkişaf etmiş ölkədir, amma hələ də sürücülər birbirinin üstünə qışqırır, bir-birilə dalaşır. Sərnişinlər də həmçinin. Hamı əsəbi və narazıdır, çünki ictimai nəqliyyatdakı problemlər həllini tapmayıb. Yüksək texnologiyalar əsrində nəqliyyat da texnologiyalarla idarə olunmalıdır. Nəzarətçilər dayanacaqlarda dayanıb sürücülərə nəzarət etməməli, hər nəzarətçinin əlində sekundomer olmamalıdır. Amma belə görünür ki, biz irəli getmək əvəzinə geri addımlayırıq. Və keçmiş dövrə - qışqırıq dövrünə qayıdırıq.

**Məlahət Rzayeva**

# "Ermənistan hələ təhlükə mənbəyi olaraq qalacaq"

## Şöhrət Eyvazov: "Biz informasiya təhlükəsizliyinin tələblərinə əvvəlki illərlə müqayisə olunmayacaq qədər doğru əməl elədik"



**İkinci Qarabağ müharibəsi dövründə əsgər və zabitlərimiz ön cəbhədə döyüşürdülər. Arxa cəbhədə sabitliyin təmin olunmasında, bu və ya digər informasiya təxribatının qarşısının alınmasında isə jurnalistlərimizin müstəsna rolu var idi. Bəzi media işçilərimiz hər ikisində- həm ön xətdə, həm də informasiya cəbhəsində vuruşurdu. Onlardan biri də İctimai Televiziyanın İnformasiya Departamentinin böyük redaktoru Şöhrət Eyvazovdur.**






Şöhrət bəyin Birinci Qarabağ müharibəsində iştirakı və ehtiyata buraxılmış kapitan olması budəfəki hərbi əməliyyatlar zamanı onun çox köməyinə gəldi. Həmkarımız bir-bir azad olunmuş torpaqlarımızdan təqdim etdiyi reportajlarla sanki ürəklərə su çiləyirdi.

Şöhrət bəyin bu günlərdə "Zəfər media" mükafatına layiq görülməsi heç də təsadüfi deyil. Bu, onun birbaşa müharibə dövründəki səmərəli fəaliyyəti ilə əlaqədardır. Biz də "Şərq" olaraq həmkarımızla əlaqə saxladıq və bir sıra aktual suallara cavab axtardıq:

**- Vətən müharibəsindəki qələbəmizi necə qiymətləndirirsiniz?**

- Möhtəşəm. Mən üçqat sevinclə qarşıladım. Birinci Qarabağ müharibəsində döyüşdüyüm yerlərin, şəhid olmuş döyüş dostlarımın qanının töküldüyü yerlərin azad olunmasının yaratdığı sevinci sözlərlə izah edə bilmərəm. Qürur qarışıq bir sevincdir. İkincisi, Qarabağda doğulsam da, atamgil Dərələyəz mahalının Sallı kəndindən 1950-ci illərdə deportasiya olunarkən məşəqqətə dözməyərək həlak olan 15 yaşlı Məmmədəli əmimin və digər soydaşlarımızın qisası alındı. Anamgil isə Sisyanın Ərəfsə kəndindəndirlər. Ana qohumlarımın əksəriyyəti 1918-ci ildə daşnak Andranikin Zəngəzurda törətdiyi terrorun qurbanı olub. Nəhayət, 2007-ci ildən başlayaraq İctimai Televiziyanın Qarabağ müxbiri olaraq Ağdamın cəbhə xəttinə bitişik Çıraqlı, Cəbrayılın Cocuq Mərcanlı kəndindən və digər yaşayış məntəqələrimizdən reportajlarda dediyimiz, "Gün o gün olsun növbəti bayramı Şuşada keçirdək!" arzumuzun reallaşacağının gətirdiyi sevinc. Azərbaycan xalqının, Azərbaycan ordusunun bu qələbəyə gələn yolu otuz il çəkdi. Atəşkəsdən sonrakı hər il ordumuzun maddi-texniki bazasının təkmilləşdirilməsinə, əsgər və zabitlərin döyüş və psixoloji hazırlığının gücləndirilməsinə öz töhfəsini verirdi. 2016-cı ilin Aprel döyüşlərində Ermənistan Ordusunun döyüş qabiliyyəti "test" edilmişdi. Düzdü, hiyləgər düşmən həmin döyüşlərdən sonra müdafiə xətlərinin sayını 2-dən 5-ə çatdırmışdı. Amma müzəffər Ali Baş Komandanın "dəmir yumruğunun" qarşısını ala bilmədilər. Xalqımızın Orduyla bir olması qələbədə mühüm əhəmiyyət kəsb edir.

**- Bu uğurun qazanılmasında jurnalistlərimiz hansı rolu oynadılar?**

- Biz informasiya təhlükəsizliyinin tələblərinə əvvəlki illərlə müqayisə olunmayacaq qədər doğru əməl elədik. Kiçik istisnalar oldu. Məsələn, canlı efirdə düşmən mərmisinin düşdüyü yerin ümumi görünüşünün göstərilməsi və yaxud nəyin yaxınlığına düşdüyünün deyilməsi kimi. Lakin bütövlükdə informasiya cəbhəsi - istər Qarabağ bölgəsində 10 ildən çox xidmət edən media nümayəndələri, istər Bakıdan ezam olunan qruplar bu sınaqdan uğurla çıxdı. 44 günlük müharibədə sosial şəbəkələrdə məhduddiyyətlərin olduğuna görə əsas məlumat bazası peşəkar KİV idi. Mediamız həm hərbi əməliyyatlar, həm də Ermənistanın mülki əhaliyə qarşı törətdiyi terrorun nəticələri haqqında ətraflı məlumat verdilər.

**- Necə düşünürsünüz, belə fors-major hallarda jurnalistlər necə davranmalıdır: xəbərçilik, yoxsa vətəndaşlıq önə keçməlidir?**

- Birmənalı şəkildə vətəndaşlıq. Ola bilsin, hansısa xarici ölkədəkilər, jurnalistikanın hansısa prinsiplərini önə çəkib, bunun əksini sübut etməyə çalışsınlar. Amma bu prinsipləri özlərinə sərf eləyən şəkildə istifadə və ya təbliğ etmək onların köhnə adətidir. Məsələn, Amerika-İraq müharibəsində Amerika ordusunun bütöv bir bölməsi qida təminatında gecikməyə görə döyüşə girməkdən imtina eləmişdi. Lakin o vax həmin məlumatın yayılmasının qarşısı tam alındı. Bu barədə hardasa 3 il sonra xəbərlər yayıldı.Tək müharibə yox, ümumi hərbi mövzularla bağlı bu qaydanı hər zaman qorumaq lazımdır. Ölkəmizdən misal çəkə bilərəm, təxminən 15 il əvvəl düşmənin kəşfiyyat qrupu Füzuli istiqamətində cəbhə bölgəsinə keçmişdi və onlardan 2 nəfəri saxlanmışdı. Sensasiya yarışında olan bir media qurumu sözügedən məlumatı yayanda, bunu Ermənistan da bildi və digər erməni diversantları tutmaq mümkün olmadı.

**- Bilirik ki, ilk günlərdən etibarən düşmən ard-arda dezinformasiyalar yayırdı. Həmin saxta xəbərləri neytrallaşdırmaq, qarşısını almaq üçün Azərbaycan media nümayəndələri nə etməlidirlər?**

- Bəli, məsələn, Ermənistan Hadrutun, sonra Şuşanın azad edilməsini boynuna almaq istəmirdi. Burda məqsəd, "əkshücum ilə, bəlkə də, qaytararıq" prinsipi idi. Təkcə Hadrutun geri qaytarılmasına 3 ciddi cəhd oldu. Hər birində də "burunları ovuldu". Və ya mülki obyektlərə atəş açmaq cəhdlərini guya, həmin ərazilərdə hərbi obyektlərin olmasıyla "izah" edirdilər. Lakin həm yerli, həm də xarici media nümayəndələri, xüsusi ilə də qardaş Türkiyə jurnalistləri ermənilərin bu dezinformasiyalarının qarşısını ala bildilər.

**- Bilirsiniz ki, uzun müddətdir Azərbaycan və Türkiyə ortaq media platformasının yaradılması müzakirə olunur. Belə bir layihənin əhəmiyyəti nədən ibarət olacaq?**

- İnformasiya cəmiyyətində yaşadığımıza görə bu platformanın çox böyük əhəmiyyəti var. Əslində sözügedən platformanın yaradılmasının vacibliyi, bu birlik özünü 44 günlük savaşda praktik olaraq göstərdi. Uzun müddət təklənmiş Azərbaycana verilən digər mənəvi dəstəklər kimi, bu media dəstəyi həm türk dünyasına, həm digər ölkələrə haqq səsimizin çatmasında mühüm rol oynadı. Türk jurnalistlərin həyatlarını təhlükəyə ataraq hazırladıqları reportajlar çox maraqla qarşılanırdı. Jurnalistlərimizin cəbhə xəttindən hazırladıqları reportajların Türkiyə televiziya kanallarında nümayişi də elə bu birliyin təzahürü kimi qiymətləndirilməlidir. Ümid eləyirik ki, tezliklə daha sistemli Azərbaycan-Türkiyə media platformasının yaradılmasının şahidi olacağıq. Bu layihənin əhəmiyyətinin gələcəkdə iki qardaş ölkədən əlavə, digər türkdilli dövlətləri də əhatə edəcəyindən əminəm.

**"Bütün hallarda qarşı tərəfin hər bir addımı diqqətlə izlənilməli və adekvat cavablar verilməlidir"**

**- Vaxtı ilə hərbçi kimi uğrunda döyüşdüyünüz torpaqlarda indi reportajlar hazırlamaq necə hissdir?**

- 44 günlük savaşdan əvvəlki dövrdə cəbhə bölgəsində xidmət edən hərbi jurnalistlərimizin, operatorlarımızın əsas arzusu Qələbə reportajlarını vermək idi. Mən o vaxt deyirdim ki, əsas bu Zəfəri qazanmaqdır, o qədər yaşayış məntəqələrimiz azad ediləcək ki, hamımıza bu xəbəri verməyə növbə çatacaq. Həm müharibə veteranı, həm də hərbi jurnalist kimi Cəbrayıldan, Hadrutdan, Daşaltıdan, Şuşadan soyuqqanlı reportaj hazırlamaq çox maraqlı və şərəfli idi. Məsələn, xüsusi təyinatlılarımızın möcüzə igidliyini göstərmək, demək olar ki, mümkün deyil. Ölümün gözünə dik baxıb, müqəddəs bayrağımızı dalğalandırıb, əbədiyyət zirvəsini fəth edərkən özünü xoşbəxt sayan şəhidlərimiz haqqında danışmaq isə bir reportaja sığmaz. O torpaqlarda olarkən bu ərazilərimizin hər qarışı uğrunda qan töküldüyünü unutmamalıyıq!

**- Bir zabit kimi fikriniz maraqlıdır, yeni müharibə başlaya bilərmi? Hadisələrin bundan sonrakı inkişafını necə təxmin edirsiniz?**

- Biz sülhpərvər xalqıq, başqasının torpağında gözümüz yoxdur. Amma deyirlər ki, sülh istəyirsənsə, müharibəyə hazır olmalısan. Ermənistan tərəfinin müharibə ritorikası, müəyyən qüvvələrin onu yenidən qızışdırmaq cəhdləri əslində münaqişə ocağının nə vaxtsa alovlana bilməsini istisna etmir. Buna baxmayaraq, Ermənistanın özünə gəlməsinə ən azından xeyli vaxt lazım olacağı qənaətindəyəm. İkinci bir tərəfdən isə Ermənistan, "erməni xəstəliyi", "erməni faşizmi" ideologiyasından əl çəkmədiyi müddət ərzində həm Qafqaz, həm də bütün dünya üçün təhlükə mənbəyi olaraq qalacaq. Havadarlarının köməyi ilə 27 ildir torpaqlarımızı işğal edən Ermənistanın 44 gündə bu əraziləri təhvil verməyə məcbur olduğunu unutmamalıyıq. Müharibədə Ermənistanın qoyub qaçdığı texniklər, sursatlar, 10 mindən çox fərari sayı dünya ermənilərinin 200 illik miflərini darmadağın edib. Lakin bütün hallarda qarşı tərəfin hər bir addımı diqqətlə izlənilməli və adekvat cavablar verilməlidir.

**Kənan Novruzov**

Fevral ayının 11-də Müdafiə nazirinin sabiq müavini, Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə qoşunlarının komandanı, general-leytenant Rail Rzayevin qətlindən 12 il ötdü. Lakin bu müddət ərzində nə generalın qatili, nə də sifarişçiləri tapılıb. Məlumat üçün qeyd edək ki, Rail Rzayev 1992-ci ildən etibarən Azərbaycan Respublikasının Silahlı Qüvvələrində fəaliyyət göstərib. O, Müdafiə Nazirliyi Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı - idarə rəisi kimi çalışıb. R.Rzayev Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 1993-cü ildə Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı vəzifəsinə təyin olunub. General 2009-cu ilin 11 fevralında evinin önündə, Bakı şəhəri, İsmayıl Bəy Qurtqaşınlı küçəsi 125 ünvanında, 172 nömrəli məktəbin yaxınlığında öz maşınında başından vurularaq qətlə yetirilib. R. Rzayev elə həmin gün torpağa tapşırılıb.



# Generalın 12 il əvvəl baş verən qətlinin üstü hələ açılmayıb

## Rail Rzayevin öldürülməsində Rusiya "izi" var

Hətta onun ölümündən sonra özünə əvvəlcədən qəbir yeri aldığı şayiələri yayılıb. Generalın məzarının öncədən hazır olduğu söylənilib. Məşum hadisədən bir müddət sonra sabiq Baş prokuror Zakir Qaralov jurnalistlərə açıqlamasında R.Rzayevin qətlinin ardınca onun iş otağına qanunsuz müdaxilə olunduğunu və oradan bəzi maddi əşyaların oğurlandığını bildirib. Generalın köməkçisi Aydın Rəfiyev başda olmaqla daha bir neçə şəxsin bu qanunsuz əməllərin gizlədilməsində iştirak etdiyini vurğulayan Z.Qaralov onların həbs olunduqlarını qeyd edib. Baş prokuror həmçinin saxlanılan şəxslərin generalın qətlində bilavasitə iştirakının olub-olmamasının da araşdırıldığını deyib.
2010-cu ilin noyabrında Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəmənin qərarı ilə Aydın Rəfiyev 9, onun oğlu Anar Rəfiyev 7 il 6 ay, generalın yavəri Anar Həşimov isə 7 il müddətinə azadlıqdan məhrum ediliblər. Qeyd edək ki, Aydın Rəfiyev 2016-cı ildə vaxtından əvvəl azadlığa buraxılıb.
Zakir Qaralov generalın qətlinin araşdırılmasında xarici ekspertlərin də iştirak edəcəyini açıqlayıb.
Baxmayaraq ki, müəmmalı qətl hadisəsindən 12 il ötüb, lakin sirr pərdəsi çəkilməyib. O gündən indiyə qədər dolaşan bir neçə versiya var. Bunları o vaxt mətbuata müsahibəsində sabiq MTN şefi Eldar Mahmudov sadalayıb və generalın qətli ilə bağlı araşdırmaların 4 istiqamətdə getdiyini söyləyib.

Yazıda qeyd edilib ki, birinci versiyada Rail Rzayevin tikinti sektoru ilə bağlı öldürüldüyü düşünülürdü. Deyilirdi ki, mərhumun tikinti sektorundakı fəaliyyəti bu sahəni monopoliyaya alan qüvvənin planları üst-üstə düşməyib. Rzayevin şimal qonşumuzun geosiyasi planlarının qurbanı olduğunu iddia edənlər də var idi. Bir də qətlindən qısa müddət sonra generalın ailə münaqişəsi zəminində öldürüldüyü söylənildi: "İstintaqın generalın ikinci həyat yoldaşının yaxını tərəfindən öldürülməsi versiyasını əsas götürməsi ilə bağlı xəbərlər gəldi. Orada deyilirdi ki, Rzayevin iki ailəsi olub. Birinci ailəsini ölümündən xeyli əvvəl İsrailə göndərib. Özü də ora getmək fikrində imiş. Hətta qətlindən sonra istintaqçılar Rzayevin iş yerində sənədləri yoxlayarkən onun adına rəsmiləşdirilmiş İsrailə aviabilet də tapıb. Biletin üzərindəki tarix fevralın 12-sini göstərib. Digər versiya isə generalın hakimiyyətdə təmsil olunan generallarla mübahisəsinin nəticəsində aradan götürülməsidir. Şərti olaraq sonuncu versiya isə Rzayevin silah alveri ilə bağlı öldürülməsi idi. Bu versiyaya görə, silah alverindən əldə olunan gəlirin bir hissəsi yoxa çıxıb. Bunun hesabını isə Rzayevdən soruşacaqlarmış. Bu alverdə "əli" olanlar generalı aradan götürüb özlərini sorğusualdan yayındıra bilərdi".




Qətlin araşdırmasında bir maraqlı məqam da diqqət çəkib. Demə, generalın güllələndiyi ərazi elə Eldar Mahmudovun evinin yaxınlığında imiş. Hər tərəfdən kameralarla əhatə olunan bir ərazidə nazir müavininin öldürülməsi və qatilin tapılmaması da maraq doğurur. O vaxt xəbər yayılıb ki, R.Rzayev qətlindən bir həftə əvvəl izlənildiyini bilib, rəhbəri Səfər Əbiyevə raportla məlumat verib, tədbir görülməsini istəyib. Həmçinin o, MTN-i də məlumatlandırıb. Sabiq Baş qərargah rəisi Nəcməddin Sadıkov da " Röyters"ə Rzayevin qətlinin bir həftə öncəsindən izlənildiyini bildiklərini söyləyib.

**Generalın sirr dolu qətli ilə bağlı "Şərq"ə danışan hüquqşünas, vəkil Adəm Məmmədov məsələni belə şərh edib:** "Adətən belə hadisələrdə Baş prokuror və MTN naziri olay yerinə baxış zamanı birbaşa iştirak edirlər. Onların iştirak etməməsi də maraq doğurur. Hətta sonra oxudum ki, generalın qətlinin ardınca onun qohumlarını, qardaşını da işlərindən azad ediblər. Görmüşük ki, ölmüş insanın yaxınlarına hörmətlə yanaşarlar. Bu işdə əksinədir. Onun yaxınları, qohumları təqiblərə məruz qaldılar. Hələ bunu araşdırmaq lazımdır. Niyə? Səbəb nə idi? İndi onları təqib edənlər yaşayırlar, sağsalamatdırlar. Soruşulmalıdır ki, niyə etdiniz? Sifarişini kim vermişdi? Bu gün 2 saat bəsdir ki, Dövlət Təhlükəsizlik Xidməti təqsirkar şəxsləri, qətlin sifarişçilərini müəyyənləşdirsin".

**Təhlükəsizlik məsələləri üzrə tanınmış ekspert, keçmiş MTN zabiti, ehtiyatda olan polkovnik İlham İsmayıl qatilin və sifarişçilərin professional işlədiyini söyləyib:** "Bu günə qədər sirr pərdəsinin açılmama səbəbi isə istintaq tədbirlərinin zəif və ya heç aparılmamasıdır. Gündüz vaxtı bir generalın qətl edilməsinin belə gizli qalması mümkün deyil. Zənnimcə, önəm verilmir. Rail Rzayevin dəfn mərasimindən də məsələyə ciddi yanaşılmadığı məlum idi. İstintaq tədbirləri aparılsa, qətlin sifarişçilərini də, qatili də tapmaq mümkündür. Burda çox fərziyyələr irəli sürmək olar. Görünür, müəyyən səlahiyyətlərə malik şəxslərin rolu var və onlar imkan vermirlər. Amma onların kimliyindən asılı olmayaraq, qətlin səbəbləri və sifarişçiləri tapılmaldır. Bu, dövlətin də xeyrinə olacaq. Əks halda kölgələr, şübhələr dövlətin səlahiyyətli şəxslərinin üzərinə atılar. Məsələn, o dövrdə müdafiə naziri Səfər Əbiyev idi. Elə onun üstündə də qala bilər. Müdafiə Nazirliyi ən çox maliyyə vəsaiti ayrılan sahələrdən biridir. Bəlkə burda pul məsələsi olub. Bütün bunları araşdırmaq üçün xüsusi maraq göstərilmir. Beləliklə, bir sıra şübhələr yaranır. Ona görə Baş və ya Hərbi prokurorluq istintaq işlərini davam etdirməli, ictimaiyyəti də məlumatlandırmalıdır. Dolğun informasiya olmadıqca şübhələr qalacaqdır".

**Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu isə 2017-ci ildə bu məsələdən yazdığını və yazının effekt doğurduğunu deyib:** "Bir sıra kütləvi informasiya vasitələrində məqaləmə kölgə salmaq üçün ortaya uydurma versiya atdılar. Guya kimsə R.Rzayevin qətlini boynuna alıb və hadisə hansısa məişət zəminində baş verib. Təbii ki, bu şayiə sonra öz təsdiqini tapmadı. Azərbaycanın müstəqillik dövründə R.Rzayevin ölümü ən müəmmalı qətllərdən biridir. Kənardan düşünürsən ki, ölkənin Hərbi Hava Qüvvələrinin komandanı, müdafiə nazirinin müavini, general-leytenant qətlə yetirilir. Araşdırmalarım göstərdi ki, R.Rzayevin qətli Azərbaycanın müdafiə sahəsində xarici siyasət vektorunun dəyişməsi ilə bağlı idi. Yəni Azərbaycan bir müddət Rusiyadan uzaqlaşaraq İsraillə hərbi əməkdaşlıq qurmağa başladı. Rusiya ilə iş birliyinin miqyası xeyli məhdudlaşdı. Çünki Rusiya Azərbaycana çatdırılan silahların qarşılığını bir müttəfiqi, Kollektiv Təhlükəsizlik Təşkilatının üzvü kimi Ermənistana pay verirdi. Əlbəttə bu, Azərbaycanı qane edə bilməzdi. Azərbaycan daha müasir silahlar almaq üçün İsraillə iş birliyinə getdi. Biz də həm Türkiyə, həm də İsraillə əməkdaşlığın müsbət nəticələrini 2020-ci ildə gördük. Rusiya bunun qarşısını almaq üçün Azərbaycandakı şəbəkəsi, dövlət və hakimiyyət orqanlarındakı adamları vasitəsilə Rail Rzayevi qətlə yetirdi. Onun öldürülməsi Azərbaycan müdafiə və təhlükəsizlik siyasətinin dəyişməsinə Rusiyanın reaksiyası idi. Sabiq Baş qərargah rəisi Nəcməddin Sadıkov məsələ ilə bağlı sorğulanıbmı? Çox güman ki, yox. Bu məsələ siyasidir, Rusiyada qıcıq, sərt reaksiya yarada bilər. Eyni zamanda qətlin araşdırılmaması, qatilin üzə çıxarılmaması belə cinayətlərin davamına gətirib çıxarır. Bunlar bir zəncirdir, R.Rzayevin qətli də bura daxildir. Məqsəd isə Azərbaycanın müdafiəsini zəiflətmək, Rusiyadan asılı vəziyyətdə, onun təsir dairəsində saxlamaqdır. Ölkəmizin başqa potensial tərəfdaşları ilə əməkdaşlığına imkan verməməkdir. Düşünürəm ki, bu qətl hələ açılmayacaq. Azərbaycanda birmənalı şəkildə anti-Rusiya siyasəti yürüdülsə, ortaya çıxar. İradə və qətiyyət tələb edir, indi isə çətin məsələdir. Azərbaycanda R.Rzayevin ölümündən sonra xarici əməkdaşlıq vektorunun Rusiyanın xeyrinə dəyişməsi qətlin səbəbinin dediyim kimi olduğunu sübut etdi".

**Samirə Ərəbova**

# Çiynində 4 gün yaralı əsgər gəzdirib

## Silahdaşları "burax onu, öləcək" deyiblər, lakin o, əsgəri tibb məntəqəsinə çatdırıb



**İllərdir gözlədiyimiz tarixi qələbəni bizə bəxş edən minlərlə igidimiz var. Onlardan kimisi qazi, kimisi şəhiddir, bəzilərinin də ruhu yaralıdır. Hər birinə ayrı-ayrı borcluyuq. Hələ şəhidlərimizin yanında, onların uca məqamları qarşısında boynumuz qıldan incədir.**

Adlarını bir-bir əzbərləyib, könül lövhəmizə yazmağa and içmişik. Sanki onlar daim bizi izləyirmiş kimi yaşayıb, hər zaman əziz xatirələrini yad edəcəyik.

Eynilə şəhid Əzizov Elvin Əfrail oğlunu andığımız kimi...

**Elvin Füzuli rayonunun Musabəyli kəndi istiqamətindəki döyüşlərdə şəhadətə qovuşub**

Qəhrəmanımız Masallı rayonunun Qarğalıq kəndində 1986-cı ilin 26 fevralında dünyaya göz açıb. Ədalət Vəliyev adına tam orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşüb. Əsgərlikdən sonra müxtəlif sahələrdə çalışıb. Ardınca sənədlərini toplayıb hərbiyə göndərib. Üç il müddətdən artıq hərbi qulluqçu kimi fəaliyyət göstərib. Gizirlik kursundan keçərək elə gizir vəzifəsində işləməyə başlayıb.

İkinci Vətən müharibəsi başlayanda cəbhəyə yollanıb, döyüşlərdə fəal iştirak edib. O, tank komandiri vəzifəsində imiş.



**"Şərq"lə həmsöhbət olan şəhidin qardaşı Tacəddin bəy deyir ki, Elvin Cəbrayıl istiqamətində yaralanıb:** "Tankı vurulan zaman Elvinin sürücüsünün vəziyyəti ağır imiş. O, əsgərini tankın içindən çıxarıb. Bir az getdikdən sonra mühasirəyə düşüb. Bir-neçə saat təkbaşına döyüşüb. Dörd gün çiynində yaralı əsgərlə vuruşub. Silahdaşları əsgərin öləcəyini deyib, onu basdırmağı tövsiyə ediblər. Elvin isə onlarla mübahisə edib, söyləyib ki, onu şəhid olmağa qoymayacaq, tibb məntəqəsinə çatdıracaq. Dediyi kimi olub, əsgəri sağ-salamat məntəqəyə aparıb. Hazırda o, yaşayır, xidmət edir. Elvin də Füzuli rayon Diaqnostika Mərkəzinə yanıq xəsarətləri ilə yerləşdirilib. İki gün qalıb, sonra könüllü döyüşə qayıdıb. Tank üçün heyət axtarılan zaman Elvin getmək istədiyini bildirib. Döyüş yoldaşları yaralı olduğu üçün onun gəlməməsini deyiblər. Elvin onların sözlərinə məhəl qoymayıb, savaşa dönüb. Füzuli rayon Musabəyli kəndi istiqamətində qəhrəmancasına şəhadətə ucalıb".

*Şəhidimiz 16 oktyabr 2020-ci ildə doğma kəndində torpağa tapşırılıb. O, ailəli idi, üç övladı - iki qızı, bir oğlu var.*

**Elvin Əzizov ölümündən sonra" Vətən uğrunda" medalı ilə təltif olunub.**

**Samirə Ərəbova**

---

# Bazar araşdırılmasa, üzülən çox olacaq

## Hamı kartof əkir, hamı kartof satır, hamı itirir

"Bir mövsüm kartof yaxşı satılır, növbəti mövsümdə hamı kartof əkir. Pomidor yaxşı satılır, hamı pomidor əkir. Amma bu dəfə də satılmır, məhsul qalır əllərində. Eyni vəziyyət, xatırlayırsınızsa, sarımsaqla bağlı baş verdi. Kimsə dedi ki, bu il bazarda sarımsağa tələbat var, növbəti ildə az qala bütün fermerlər sarımsaq əkməyə başladılar. Məhsul o qədər bol oldu ki, alıcı daha tapılmadı..."

**Fəlsəfə elmləri doktoru, kənd təsərrüfatı üzrə ekspert Qadir Bayramlı "Şərq"ə açıqlamasında aqrar sığorta məsələlərindən da**nışarkən bildirdi.

Qeyd edək ki, Aqrar Sığorta Fondu Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi vasitəsilə kartof əkini sahələrinin sığortalanması şərtlərini açıqlayıb. Fond bildirir ki, fermerlər və iş adamları 2021-ci ildə kartof əkini sahələrinin sığortalanması üçün artıq indidən müraciət edə bilər.

Aqrar sığorta mexanizmi çərçivəsində 14 bitki növü və məhsulunun sığortalanması nəzərdə tutulur. Bunlar - buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, portağal, narıngi, çay, çəltik, tütün, üzüm, fındıq və pambıqdır.

Fondun məlumatında qeyd olunur ki, hazırda kartof Azərbaycanın əksər rayonlarında, o cümlədən Gəncə-Qazax, Aran, Şəki-Zaqatala, Quba-Xaçmaz və sair ərazilərdə əkilir və fermerlərə böyük fayda gətirir.

Kartof sahələrinin sığortalanması zamanı bitkinin məhsuldarlığı, qiyməti, yerləşdiyi ərazi və seçilən sığorta zərfi nəzərə alınacaq.

Qaydalara əsasən, hesablama aparılması üçün kartofun 1 hektar üçün məhsuldarlıq və məhsulun qiyməti normaları müəyyən edilib. Belə ki, kartofun bir hektarı üçün məhsuldarlıq norması 9-900 sentner arasında, qiymət isə 40-100 manat/sentner arasında müəyyən edilib.

Sığorta zərflərini fermer və ya kartof sahəsinin sahibi özü seçir, yeni sığorta zərfləri fermerin qərarından asılıdır.

Kartofun sığortası üçün tələb olunan sığorta tarifləri və sığorta haqları bitkinin məhsuldarlığı, qiyməti və seçilən sığorta zərfi ilə yanaşı, bölgələrdən də asılı olaraq dəyişir. Daha az təbii fəlakət riski olan bölgələrdə sığorta haqları daha aşağıdır. Fəlakət riski yüksək olan ərazilərdə isə sığorta tarifləri və haqları nisbətən yüksəkdir.

Sığorta zərflərinin əhatə etdiyi risklər dedikdə dolu, yanğın, zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, bitki xəstəlikləri və zərərvericilər, xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu nəzərdə tutulur.

Azadolma məbləğləri və sığorta haqları ölkənin regionları üzrə dəyişir. Kartofun sığortası üzrə ən yüksək sığorta tarifləri Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonlarında, ən aşağı sığorta tarifləri isə Quba-Xaçmaz, Lənkəran və Abşerondadır.

Gəncə-Qazax regionundakı kartof sahələrinin sığortalanması Aran və Quba-Xaçmaz regionu ilə müqayisədə təqribən 3 dəfə daha baha başa gəlir. Tariflərdəki bu fərq həmin bölgələrin iqlim şəraiti və təbii riskləri ilə bağlıdır.

Qaydalara əsasən, fermerlər sığorta haqqının onlara aid olan hissəsini hissələrlə ödəyə bilərlər. Bu halda sığorta haqqının yarısı dərhal, digər yarısı isə 1 aydan sonra ödənilir.

Kartof sahəsinin sığortalanması zamanı fermerlərə sığorta haqqının ödənişində əlavə güzəştlər də nəzərdə tutulub. Kartof



## Kənd təsərrüfatı sahəsində böyük bir xaos hökm sürür

demək olar ki, ilin bütün dövrlərində əkildiyi üçün onun sığortalanması ilə bağlı hər hansı qrafik nəzərdə tutulmayıb. Yəni kartof əkini ilə məşğul olan fermerlər və iş adamları istənilən vaxt bunun üçün müraciət edə bilər.

**Mütəxəssis isə bu fikirdədir ki, əhalinin ümumilikdə sığortaya inamı zəif olduğundan bu məsələyə diqqət yetirmirlər:**

- Təkcə kənd təsərrüfatı sahəsində deyil, ümumilikdə, demək olar bütün sahələrdə sığorta sistemi özünü doğrultmadığı üçün vətəndaşlar sığortaya bel bağlamır. Çünki lazım olan zaman sığorta haqqını əldə edə bilmirlər. Bu sahədə maarifləndirmə də aparılmır. Şəffaflıq təmin edilmir. Bilgiləndirmə zəifdir. Məsələn, Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Sığorta Fondunun mütəxəssisləri bölgələrə səfərlər edib toplantı keçirməsinlər, fermerləri məlumatlandırsınlar. Bir çox ölkələrdə aqrar sığorta sistemi fermerlər üçün əlverişli formada tətbiq edilir, biz isə bu sahədə geri qalırıq. Azərbaycanda kənd təsərrüfatı sahəsində ən böyük çatışmazlıq aqro-sığorta ilə bağlıdır. Aqro-sığortanın tətbiq olunmaması böyük çətinliklər yaradır. Fermer kredit götürür, sığorta təminatı olmadığı üçün təsərrüfatını inkişaf etdirə bilmir. Problem təkcə kartofla bağlı deyil. Bütün kənd təsərrüfatı məhsulları ilə bağlı xüsusi proqram olmalıdır. Hansı bölgədə hansı məhsul əkiləcək, o məhsul hansı bazarlarda satılacaq, ixrac üçün nəzərdə tutulacaq, yoxsa daxili bazara hesablanacaq. Kənd təsərrüfatı kortəbii şəkildə, "bu il kartofa ehtiyac vardı, bazarda yaxşı satıldı, yeni kartof əkək" kimi prinsiplərlə idarə edilməməlidir. Heç olmasa hansısa bir bölgədə pilot layihə həyata keçirsinlər. Hansı məhsula tələbat olduğunu elmi əsaslarla müəyyənləşdirsinlər. Proqram tərtib edilsin ki, hansı bölgədə hansı məhsullar əkilib becəriləcək, fermerlərə də hansı məhsulu becərmələrinin daha faydalı, gəlirli olacağına dair tövsiyə versinlər.

**Q.Bayramlı qeyd etdi ki, fermerlərin becərdiyi məhsulun əllərində qalması - satılmaması və ya dəyərindən çox ucuz satılması faktları daim yaşanır:**

- Məhsul bəzən fermerin əlində qalır. Çünki bazar araşdırması anlayışı da zəifdir. Türkiyədə "daban qiymətləri" yanaşması var. Nədir bu. Dövlət məhsul əkilərkən onun gələcək alıcısı kimi çıxış edir. Yəni əvvəldən fermerə təminat verir ki, sənin məhsulunu mən alacam. "Daban qiyməti" - bizdə buna baza qiyməti də deyilir, dövlətin zəmanət verdiyi qiymətdir. Bu sistem fermerə güvən verir, fermer becərdiyi məhsulun satışından arxayın olur. İkincisi, məhsulların xarici bazarlara çıxışı təmin edilməlidir. Sertifikat verənlər kömək etmək əvəzinə, mane olmamalıdır. Bu sahədə monopoliya aradan qaldırılmalıdır. Üçüncüsü, fermerlərin daxili bazara girişi təmin edilməlidir. Yollardakı yersiz nəzarətlər ləğv edilməlidir. Bazarların sayı artırılmalıdır. Həftə sonları, bayram günlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının köməyi çox azdır bu məsələdə. Məsələn, Abşeron ərazisində geniş sahələr var. Orada fermerlər üçün yataqxana tipli bina inşa etmək olar. Çünki kənddən şəhərə məhsul gətirən fermerin mehmanxanada bir gecə üçün 40-50 manat ödəmək imkanı olmur. Amma yataqxanalar olsa, fermer məhsulunu rahat şəkildə bazara gətirər, yollarda incidilməsə, əlbəttə, bazara çıxarar, məhsulu satıb qurtaranadək də yataqxanada qalar. Bundan əlavə, bölgələrdə tədarük məntəqələri yaradılmalıdır. Fermerlər məhsullarını xarab olmasın deyə, həmin məntəqələrə təhvil verməlidirlər. Azərbaycanda kənd təsərrüfatı sahəsini inkişaf etdirmək üçün geniş imkanlar var. Potensialımız böyükdür. Bu potensialdan lazımi qaydada, həm ölkənin kənd təsərrüfatına, həm də fermerlərə faydalı olacaq şəkildə istifadə edilməlidir.

**Məlahət Rzayeva**

# ABŞ-Rusiya münasibətləri kəskinləşəcək

## Amma proseslərin hərbi toqquşmalara çevriləcəyi istisna olunur



NATO Baş katibi Yens Stoltenberq bildirib ki, NATO Rusiya ilə həm qarşıdurmaya, həm də qarşılıqlı fəaliyyətə hazırdır.

Onun sözlərinə görə, hər şey Moskvanın mövqeyindən asılıdır: ”İnanıram ki, biz Rusiyaya aydın siqnal göndərməliyik: Onlar toqquşma istəsələr, biz buna hazırıq. Əgər əməkdaşlıq etmək istəsələr, biz buna şad olacağıq.

NATO öz üzvlərini qorumağa hazırdır. Rusiya ilə dialoq gücə, möhkəmliyə söykənməlidir. Rusiya ilə də danışmalıyıq. Ehtiyatlı davranmaq və dialoq arasında heç bir ziddiyyət yoxdur. Moskva ilə münasibətlərimizin daha yaxşı ola biləcəyinə inanmasaq belə, dialoqa davam etməliyik, çünki vacib əlaqələri və münasibətləri davam etdirmək lazımdır. Silahlanma yarışından qaçmaq üçün silahlara nəzarəti düşünün. Onlar bizim qonşumuzdur, maraqları var, xüsusən sərhədlərdə toqquşmalardan qaçmaq lazımdır. Norveçli bir siyasətçi olaraq Rusiya ilə işləmək təcrübəm çoxdur və bunun mümkün olduğunu bilirəm”.

**ABŞ-Rusiya münasibətlərini ”Şərq”ə şərh edən politoloq İlqar Vəlizadə iki ölkə arasında müharibənin olacağını düşünmür.**

*Analitik qeyd edib ki, ölkələr arasında müxtəlif toqquşmalar, fikir ayrılıqları və hərbi vasitələrlə aparılmayan münaqişələrin olması mümkündür:* ”Tərəflər bu münaqişələr zamanı hazırda cərəyan edən böhranlardan istifadə edəcəklər. Məsələn, Liviya və Ukraynadakı hadisələri qeyd edə bilərik. Aydındır ki, Qərb ölkələri Ukraynaya dəstək verirlər, o cümlədən hərbi yardımlarını da göstərirlər. Ona görə də ABŞ-Rusiya gərginliyi dərinləşə bilər. Lakin ciddi hərbi proseslər yaşanmayacaq”.

İ.Vəlizadə vurğulayıb ki, perspektivdə nələrin baş verəcəyi ABŞ və Rusiyanın daxilindəki siyasi vəziyyətdən asılıdır:

”Amerikada hakimiyyət dəyişilib, Rusiyada isə belə bir ehtimal yoxdur. Bu da onu göstərir ki, Amerikada anti-Rusiya meyilləri, eləcə də Rusiyada eyni durum hökm sürəcək”.

**Yeganə Bayramova**

## Ermənistan "iki od arasında"dır



**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov və ermənistanlı həmkarı Ara Ayvazyan arasında görüş olacaq.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb. Danışıqlar bu gün Rusiyanın paytaxtı Moskvada baş tutacaq. Bildirilib ki, XİN başçıları ikitərəfli əlaqələri, regional və beynəlxalq məsələləri müzakirə edəcəklər. Bundan başqa, ATƏT Minsk qrupu həmsədrlərinin xətti ilə iş planı nəzərdən keçiriləcək. **Politoloq Məhəmməd Əsədullazadə sözügedən görüşü ”Şərq”ə şərh edib:** ”Gələcəkdə ABŞ-la Rusiya arasında ciddi toqquşmanın olacağını istisna etmirəm. Bunu Kreml də başa düşür. Və indidən müəyyən hazırlıq işləri görür. Görüşdə bir sıra problemlərin həlli müzakirə ediləcək. Eyni zamanda nəqliyyat infrastrukturları, o cümlədən Gorus-Qafan yolunun açılmasına dair fikir mübadiləsi aparılacaq. Həmçinin ATƏT-in Minsk qrupunun fəallaşması barədə danışıqların gedəcəyini də düşünürəm. Ermənistan iki supergüc, yəni ABŞ və Rusiya arasında qalmamaq üçün indidən doğru addımlar atmalıdır”.

**Kənan**



## İran Qarabağın bərpasında iştirak etmək istəyir

### “Qonşu dövlətlərlə müəyyən əlaqələr yaratmaq, münasibətləri inkişaf etdirmək lazımdır”

**İran parlamentinin Milli Təhlükəsizlik və Xarici siyasət komitəsinin sədri Muctaba Zonnurun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlib.**

İran parlamentinin nümayəndə heyətinin azərbaycanlı rəsmilərlə və millət vəkilləri ilə görüşü nəzərdə tutulur. Nümayəndə heyətinin sabah (bu gün) Naxçıvan Muxtar Respublikasına da səfəri planlaşdırılır.

İran səfirliyi bildirir ki, bir çox tarixi və mədəni ortaqlıqları nəzərə alaraq Azərbaycan ölkəsinin xarici siyasətində xüsusi yeri tutur: ”İran parlamentinin nümayəndə heyətinin Azərbaycana səfəri də dost və qardaş ölkə ilə bu istiqamətdə dəyərləndirilir. İranın nümayəndə heyətinin bu səfərinin parlamentlərarası əməkdaşlıqların, ikitərəfli münasibətlərin daha da inkişafı üçün lazımi bazanı yaradacağına ümid edilir”. **Səfərlə bağlı ”Şərq”ə danışan Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu bildirib ki, İranla Azərbaycan arasında çox ciddi və tarixi əlaqələr var:** ”Azərbaycan ərazisinin böyük hissəsi İranla həmsərhəddir. Bu baxımdan iki ölkə arasında iqtisadi əlaqələr mövcuddur. Həmin əlaqələrin olması da normaldır. Qonşu dövlətlərlə müəyyən əlaqələr yaratmaq, münasibətləri inkişaf etdirmək lazımdır. Məlumdur ki, İran bölgədə yerləşən dövlət olduğu üçün Qarabağın bərpasında iştirak etmək istəyir. Bu baxımdan rəsmi Tehran bölgədəki proseslərdə maraqlıdır. Düşünürəm ki, İran və Azərbaycan rəsmilərinin görüşü zamanı müxtəlif sahələrdə danışıqlar olacaq”.

**Yeganə**

# Aclıq başlayıb...

## Ermənilər qara boğazlarının hayına qalıblar

### Təkcə müharibə iştirakçıları deyil, digər təbəqənin nümayəndələri də çörək tələb edəcəklər



"Ötən gün Ermənistanda Müdafiə Nazirliyinin binası qarşısında müharibə iştirakçıları və onların yaxınları etiraz aksiyası keçirib. Etirazçıların əsas tələbi maliyyə yardımının verilməsi olub.

Çünki Ermənistanda hərbi qulluqçulara, eyni zamanda İkinci Qarabağ müharibəsi iştirakçılarına hərbi döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə maddi dəstəyin göstərilməsi ilə bağlı problemlər yaşanmaqdadır. Bundan öncə də, bir neçə dəfə Müdafiə Nazirliyinin binası qarşısında əsgər anaları, eləcə də onların yaxınları bir sıra etiraz aksiyaları keçirdiblər. Onların əsas tələbi o zaman öz övladlarının və yaxınlarının taleyinin müəyyən olunması ilə bağlı olub”.

**Bu sözləri ”Şərq”ə açıqlamasında politoloq İlyas Hüseynov deyib. Politoloq qeyd edib ki, Ermənistanda əhalinin müəyyən bir qismi Qarabağ döyüşlərində iştirak etmiş şəxslərin hərbi biletlərində müharibə iştirakçısı olmaması ilə bağlı qeydlərinə etiraz edirlər:** ”Çünki hərbi biletlərdə onların döyüşlərdə iştirak etməməsi qeyd olunub. Belə demək mümkündürsə, onlara heç bir maliyyə yardımı ayrılmayacaq. Təzminat almayacaqlarını biləndən sonra həmin şəxslər mitinq keçirmək qərarını veriblər. Ümumilikdə götürəndə Ermənistanda gələcəkdə bu kimi problemlərin olması tez-tez müşahidə edilə bilər. Çünki Ermənistanda iqtisadi durğunluq, hərbi əməliyyatlar zamanı vurulmuş külli miqdarda zərər ölkədə depressiya vəziyyəti yaradıb. Bu vəziyyət həm müxalifətdə, həm iqtidarda, həm də əhalinin müxtəlif sosial təbəqələrində geniş hiss olunmaqdadır. Ona görə də bu tipli aksiyaların Ermənistanın digər orqanları qarşısında keçiriləcəyini proqnozlaşdırmaq mümkündür”.

*İ.Hüseynov əlavə edib ki, iqtisadi vəziyyətin çox məhdud olması, xarici ianələr hesabına dövlət büdcəsini doldurmaq məqsədi güdən Ermənistanın rəhbərliyi bu cür fors-major vəziyyətlərə hazırlıqsız yaxalanıb:* ”44 günlük müharibədə Azərbaycan tərəfindən vurulan ağır və sarsıdıcı zərbələr nəticəsində Ermənistan demoqrafik, sosial, iqtisadi cəhətdən böyük sarsıntılar keçirməkdədir. Bu cür mitinqlər də təbii ki, onun beynəlxalq nüfuzuna, imicinə xələl gətirir. Eyni zamanda daxildəki problemləri həll edə bilməyən bir dövlət təəssüratı yaradır. Buna görə də Ermənistanın öz daxili siyasətinə, regional mövqeyinə və gələcək planlarına baxması ilə bağlı böyük suallar yaranmaqdadır”.

**Aynurə Pənahqızı**

## Türkiyədə yağan güclü qar 25 kilometrlik tıxaca səbəb oldu



**Türkiyənin şimal-qərbində yağan güclü qar nəqliyyatın hərəkətini iflic edib.**

Trend-in məlumatına görə, sırağagün axşam saatlarından etibarən başlayan qar Balıkesir vilayətində bir sıra yolların bağlanmasına səbəb olub.

Balıkesir-Bursa magistralında 25 kilometr uzunluğunda tıxac qeydə alınıb.

Bursadan Yalovaya gedən yol da avtomobillərin hərəkəti üçün bağlanıb.

## Putin sosial mediadan birbaşa istifadə etmir

### İlon Maskın Prezidentlə etdiyi təklifə Kremldən cavab gəldi

**Kremldən Maskın təklifinə cavab gəlib.**

Sputnik Azərbaycan CNN Türk-ə istinadla xəbər verir ki, Putinin mətbuat katibi Dmitri Peskov məsələyə belə münasibət bildirib: ”Ümumiyyətlə, maraqlı təklifdir. Amma əvvəlcə bunun nə mənaya gəldiyini, bizə konkret nə təklif olunduğunu başa düşməliyik. Bildiyiniz kimi, prezident Putin sosial mediadan birbaşa istifadə etmir, hesablarını da şəxsən özü idarə etmir”, - deyə Peskov bildirib.

*Qeyd edək ki, bu günlərdə İlon Mask ”Twitter” hesabından Putinə ünvanladığı mesajında rus dilində ”Clubhouse”da söhbət etmək üçün mənə qoşulmaq istərdinizmi?” - deyə yazmışdı. Xatırladaq ki, İlon Mask bu yaxınlarda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışaraq Türkiyədəki dövlət və özəl sektora aid şirkət və müəssisələrlə kosmik texnologiyalar sahəsində əməkdaşlıq məsələlərini müzakirə edib.*

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# “Media qurumları saniyələrlə yox, millisaniyələrlə yarışırlar”

### Vüsal Məmmədzadə: “Belə olan halda çap mətbuatı konvergensiya prosesində iştirak etməlidir”



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yaşadığımız informasiya cəmiyyətində həmişə xəbərə tələbat olub. Elə bu gün də insanlar yenilik sorağındadırlar. Lakin bir neçə əsr əvvəldən fərqli olaraq indi informasiyanın mənbələri daha çoxdur - qəzet, jurnal, radio, televiziya, sosial şəbəkələr¸Əvvəl sadəcə çap mətbuatı var idi və insanlar oxuyurdular. XXI əsrdə isə dinləmək, izləmək, nəzərdən keçirmək imkanları informasiya mənbələri arasında ciddi rəqabət yaradır.

Auditoriya bu və ya digər informasiya mənbəyinə üz tutarkən fərqli meyarları nəzərə alır. Kimi üçün operativlik, kimi üçün obyektivlik, kimi üçün də interaktivlik əsasdır. Elə isə sual yaranır: nə vaxtadək belə davam edəcək? Həqiqətənmi bundan sonra auditoriyanın informasiya mənbəyi sarıdan daimi alternativləri olacaq? Həmin ”B variant”ları tədricən artacaq, ya azalacaq?

*”Şərq” qəzeti olaraq bu barədə daha ətraflı məlumat almaq üçün sosial media üzrə tədqiqatçı Vüsal Məmmədzadə ilə həmsöhbət olduq:*

**- Yeni medianın KİV-in inkişafına təsiri nədən ibarətdir?**

- Bildiyimiz kimi, jurnalistika həmişə elmi-texniki tərəqqinin gətirdiyi yeniliklərdən bəhrələnib. Xüsusilə, kommunikasiya sahəsindəki nailiyyətlər xəbərin əldə olunması, emalı və yayımı prosesində fərqli üsul və formaların yaranması ilə nəticələnib. XX əsrin sonlarında internetin gündəlik həyatımıza sürətlə daxil olması, onlayn platformaların yaranması isə jurnalistikaya yeni məzmun qazandırıb. Məsələn, artıq media qurumları dəqiqələrlə, saniyələrlə yox, millisaniyələrlə yarışırlar. Yeni media qurumları arasında rəqabət artıb. Amansız rəqabət mühiti KİV-in fəaliyyətinin də inkişafına gətirib çıxarıb. XXI əsrin əvvəllərində ”mediada konvergensiya *(bir nöqtədə cəmləşmə)”* anlayışı məşhurlaşmışdı. Bu anlayış çox keçmədən, demək olar, bütün media qurumlarının iş prosesinə təsir etdi. Sözügedən dövrdə informasiya ilə zəngin yeni platformalar yaranırdı: sosial şəbəkələr, veb saytlar, forumlar və s. auditoriyaya informasiya əldə etmək üçün alternativlər təklif edirdi. Bütün bu platformalar sonradan ”yeni media alətləri və ya platformaları” kimi adlandırılmağa başlanıldı. Qəzet, jurnal, televiziya və radio kimi ənənəvi media platformalarının auditoriyaları da sürətlə yeni platformalara üz tuturdular. Ənənəvi media prosesə uyğunlaşmaq üçün yeni media ilə ”əməkdaşlığa” məcbur oldu: qəzetlər, televiziyalar və s. sosial media platformalarında öz hesablarını yaratdılar və digər yeni media alətlərindən istifadə etməyə başladılar. Beləliklə, konvergensiya prosesində iştirak etdilər. Konvergensiya ənənəvi mediaya itirdiyi auditoriyanı yeni media platformalarında qazanmağa imkan yaratdı. Konvergensiya ilkin mərhələdə çox mürəkkəb proses kimi görünsə də, hazırda demək olar, bütün media qurumları bu prosesi keçiblər. Bu gün sosial media platformasında fəaliyyət göstərməyən qəzet, jurnal, televiziya və radio təsəvvür etmək çox çətindir. Fikrimcə, yeni medianın KİV-in inkişafına ən böyük töhfəsi, elə konvergensiyadır.

**- Necə düşünürsünüz, yeni media alətlərindən istifadə, həmçinin vətəndaş jurnalistikanın inkişafı qəzetçiliyin yaşamasına necə təsir göstərir?**

- Radio və televiziya yayımının ilk illərində bəzi şəxslər düşünürdülər ki, artıq, çap mediasının ömrü başa çatıb. Biz bu haqda jurnalistika dərsliklərində də oxumuşuq. Amma davam edən proseslər proqnozlar düz olmadığını göstərdi. Bu gün yeni mediadan danışırıq, amma yenə də köşklərdə qəzetlər satılır. Əlbəttə, çap materiallarının operativlikdə yeni mediaya qalib gələcəyini gözləmək məntiqsizdir. Dünya təcrübəsi onu göstərir ki, qəzetlər rəqabətin güclü olduğu dövrdə də düzgün qərarlarla mövcudluğunu qoruyub saxlaya bilər. Məsələn, dünyanın ən məşhur qəzetlərindən ”Nyu York Tayms” multimedia jurnalistikasının ən təzə formatlarından biri - lonqridin yaradıcılarındandır. Bu format onlayn platformalar üçün nəzərdə tutulub. Bu gün, demək olar, bütün qəzetlərin onlayn platformalarda fəaliyyəti mövcuddur. Bununla birlikdə, qəzet çapı da davam etməkdədir. Qəzetin yaşaması üçün, düşünürəm, ilk növbədə, konvergensiyada uğurla iştirak etmək və onlayn platformaların yaratdığı imkanlardan məharətlə istifadə etmək lazımdır. Digər tərəfdən, hər platformanı öz xarakterinə uyğun istifadə etmək tələb olunur. Məsələn, qəzet üçün yazılmış bir səhifəlik yazını sosial mediada paylaşsaq, onu heç kim oxumayacaq. Digər tərəfdən, redaksiya veb saytında və digər platformalarda artıq yayımladığı məlumatları qəzetdə də dərc etməməlidir. Oxucu qəzetdəki mətnləri yalnız çap versiyada tapmalıdır. Digər platformalarda, məsələn, sosial mediada isə növbəti sayda dərc olunacaq maraqlı yazılarla bağlı anons xarakterli materiallar təqdim oluna bilər. Yəni müasir informasiya mühitində qəzetlərin mövcudluğunu qoruyub saxlaması çox çətin görünsə də, işin düzgün təşkili ilə buna nail olmaq mümkündür.

"Qəzetin yaşaması üçün onlayn platformaların yaratdığı imkanlardan məharətlə yararlanmaq lazımdır"

**- Bəziləri düşünür ki, əsas məsələ klassik ənənələrə sadiq qalmaqla həm də yeni tendensiyalardan geri qalmamaqdır. Sizcə, bu, mümkündür?**

- Əlbəttə! Bayaq da dediyim kimi, əsrin ilk illərində ənənəvi medianın yeni media ilə əməkdaşlığa başlaması, elə sizin söylədiyiniz fikrin təsdiqidir. Jurnalistikanın mahiyyəti heç vaxt dəyişməyib. Jurnalistlərin vəzifəsi həmişə cəmiyyəti məlumatlandırmaq olub. Dəyişən texnoloji avadanlıqlar, forma və üslublardır. Klassik ənənələr bu gün də yaşayır, sadəcə, yeni tələblərə uyğunlaşdırılıb və ola bilsin, görüntüsü dəyişib.

**- Etiraf etmək lazımdır ki, İKT-nin daha çox inkişaf etdiyi Qərbdə qəzetçiliyə münasibət bizdən daha yaxşıdır. İnsanlar qəzet oxuyurlar. Elə isə bizdəki çatışmazlıq nədir? Həmin səviyyəyə çatmaq üçün nə etmək lazımdır?**

- Statistika göstərir ki, qəzet və jurnallar, hətta kitabların auditoriyası sürətlə kiçilir. Tendensiya bu gün bütün dünyada davam edir. Yəni əslində, bizdə fərqli vəziyyət yaşanmır. Sual oluna bilər ki, biz özümüzü kiminlə müqayisə edirik? Məncə, Fransa ilə müqayisə düzgün olmazdı. Çünki bilirik ki, Fransa qəzet, jurnal və kitab oxuma səviyyəsində digər dövlətlərdən fərqlənir. Burada insanlar həmişə oxuyublar. Yeni medianın gəlişi ilə orada da oxuyanlar azalmasına rəğmən, ənənə olduğu üçün hazırda da çap məhsullarının kifayət qədər auditoriyası var. Bizdə vəziyyət, bir qədər fərqli olub. Əlimizdəki vasitə qəzet olduğu üçün onu oxumuşuq. Qəzetə informasiya mənbəyi kimi baxmışıq və bu gün başqa informasiya mənbələri olduğu üçün, biz də seçimimizi dəyişmişik. Qərbin bəzi ölkələrində isə qəzet oxumaq ənənədir. Məsələn, Böyük Britaniyada bu gün artıq aktuallığını itirməkdə olan səhər yeməyindən öncə qəzet oxumaq ənənəsi var. İnsanlar yuxudan oyanandan sonra səhər yeməyi süfrəsində qəzet oxuyaraq günə başlayırlar. Bizdə isə belə ənənə olmayıb. Bu gün Qərblə özümüzü qəzet oxumaq sahəsində müqayisə ediriksə, bu ənənələri də nəzərə almalıyıq. Məncə, tendensiya hər yerdə eyni nəticələrə səbəb olur.

**- İndi elə şərait yaranıb ki, fotoaparatı, azca yazma qabiliyyəti olan hər kəs özünü jurnalist hesab edir. Bu mənfi tendensiyanın qarşını almaq üçün nə etmək lazımdır?**

- ”Vətəndaş jurnalistikası” termininin ortaya çıxdığı ilk illərdə elmi mühitdə müzakirələr və hətta mübahisələr yaşanırdı. Bəzi nəzəriyyəçilər bununla peşəkar jurnalistikanın sonunun gəldiyini düşünürdülər. Digərləri isə deyirdilər ki, bu, informasiyaların daha operativ yayımına gətirib çıxaracaq. Zaman hər iki tərəfin müəyyən mənada haqlı olduğunu göstərdi. Bu gün, xüsusilə, smartfonların həyatımıza daxil olması ilə, demək olar, hər gün hamımız, ən azı, bir xəbər istehsal edirik. Bu işi görməyi sevənlər isə müəyyən mərhələdən sonra özlərini jurnalist kimi təqdim edirlər. Bu gün jurnalistlərlə hər hansı platformada informasiya yayımlayan şəxslərin gördüyü iş eyni olsa da, jurnalistlər bunu peşəkar şəkildə edirlər. Biz bu gün heç kimə deyə bilmərik ki, sən jurnalist deyilsən, niyə özünü jurnalist kimi təqdim edirsən? Bir şəxs informasiya çatdırırsa, jurnalist olmasa da, müəyyən mənada, jurnalistlərə rəqib olur. Təbii ki, qeyri-peşəkarların sayının artması və informasiya mühitinin dezinformasiya və yarımçıq məlumatlarla bulanması yaxşı hal deyil. Amma bu vəziyyəti də auditoriya düzəltməlidir. Qeyri-peşəkarlar nə qədər çox oxunsalar, o qədər çox xəbər istehsal edəcəklər. Auditoriyanın səviyyəsi artsa, qeyri-peşəkarlar özləri tədricən yoxa çıxacaqlar.

**- Sosial medianın məhdudlaşdırılmasına münasibətiniz necədir?**

- Söz azadlığının istənilən formada məhdudlaşdırılmasına qarşıyam. Digər tərəfdən, sosial medianın məhdudlaşdırılması, məncə, bu gün mümkün deyil. İndi rəsmi səviyyədə hansısa platformaya istifadəçi girişinə qadağa qoyulsa, həmin platformaya daxil olmaq istəyən istifadəçi mövcud texniki imkanlardan istifadə etməklə buna nail olacaq. Yəni bu gün sosial medianın məhdudlaşdırılması üçün cəhdlərin uğurlu alınacağına inanmıram. Amma sosial media istifadəçiləri də paylaşdıqları hər sözün məsuliyyətini dərk etməlidirlər. Bu gün bütün platformaların öz qaydaları mövcuddur və bu qaydaları pozan şəxslərin fəaliyyəti məhdudlaşdırılır. Digər tərəfdən, hər ölkənin öz məişəti, həyat və düşüncə tərzi olduğunu nəzərə alsaq, hər bir ölkənin də söz azadlığını məhdudlaşdırmamaq şərti ilə internetdən istifadə qaydalarını müəyyən etməsi arzuolunandır. Məsələn, Finlandiya internetdən istifadə qaydalarını uğurla tətbiq edir və Avropa İttifaqında da bununla bağlı qəbul olunan müxtəlif qayda və qanunlar var. Bu sənədlərdə internetdən istifadəyə aid, demək olar, bütün müddəalar əksini tapıb və bu, internetdən istifadənin tənzimlənməsinə kömək edir.

**- Necə düşünürsünüz, müasir dövrün tələbi daha çox operativ olan vətəndaş jurnalistikasına, yoxsa daha obyektiv olan peşəkar jurnalistikayadır?**

- Bayaq da dediyim kimi, burada seçim auditoriyanındır. Azərbaycandan danışırıqsa, bu gün sosial mediada informasiyanın daha sürətlə yayıldığını və auditoriya tərəfindən daha asan qəbul olunduğunu görürük. Yəqin, qarşıdakı illərdə də operativliyə tələb daha çox olacaq. Peşəkar jurnalistika isə sosial mediadakı amansız rəqabət mühitindən necə qalib çıxacağının yollarını axtarmalıdır. Çünki istifadəçi hadisə ilə bağlı birinci eşitdiyi məlumatı daha rahat qəbul edir və sonra eşitdiklərini sorğulamağa başlayır. Düşünürəm, haqqında danışdığımız internetin hüquqi cəhətdən tənzimlənməsi mexanizminin işə düşməsi, eləcə də, auditoriyanın səviyyəsinin yüksəlməsi ilə sosial mediadakı qeyri-peşəkar informasiya mənbələri də tədricən ömrünü başa vuracaq və onların yerini peşəkar media kanalları tutacaq.

**Kənan Novruzov**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Bir gün Xocalıda toplaşıb, soyqırım qurbanlarına abidə ucaldacağıq

*Ancaq indi çalışmalıyıq ki, faciə ilə bağlı tədbirlər hazırlayaq və dünya ictimaiyyətinin diqqətini cəlb edək*



Fevralın 26-sı Xocalı soyqırımının iyirmi doqquzuncu ildönümüdür. Həmin gün ümumi təhsil müəssisələri və uşaq-gənclər inkişaf mərkəzlərində ilk dərs və məşğələlər faciənin 29-cu ilinə həsr ediləcək.

Xocalı soyqırımının iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə əlaqədar Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Tədbirlər Planı təsdiq edilib.

Tədbirlər Planının təsdiq edilməsi barədə əmrə əsasən, karantin rejiminin tələbləri nəzərə alınmaqla təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunmuş onlayn tədbirlər keçiriləcək.

**"Şərq"lə həmsöhbət olan BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu Xocalı faciəsinin 20-ci əsrdə azərbaycanlılara qarşı törədilmiş ən böyük qətliam olduğunu söyləyib:** "Təəssüf ki, cinayətkar ermənilərin cəzalandırılmasına nail ola bilməmişik. Xocalı soyqırımı ilə bağlı əlimizdə faktlar, fotolar, videolar var. Beynəlxalq təşkilatlar bu məsələdə Azərbaycana yetərincə dəstək vermirlər.

Biz unutqan olmamalıyıq. Çalışmalıyıq ki, Xocalı soyqırımı ilə bağlı tədbirlər hazırlayaq və dünya ictimaiyyətinin diqqətini cəlb edək.

İnanıram ki, bir gün Xocalıda toplaşıb, orda soyqırımın qurbanlarına abidə ucaldacağıq. Hələ ki, bunları Azərbaycanın digər bölgələrində həyata keçirməliyik.

Soyqırımı ilə bağlı tədbirlərin intensivliyini artırmaq, beynəlxalq təşkilatlarla əlaqələri gücləndirmək, Xocalı haqqında müxtəlif dillərdə kitabların çap edilməsi, filmlərin çəkilməsi işlərinə baxılmalıdır.

Hər azərbaycanlı bilməlidir ki, 1992-ci il fevralın 26-da 600-dən çox günahsız insan ermənilər tərəfindən milli, dini mənsubiyyətinə görə qətlə yetirilib, biz bunu gənc nəslin beyninə həkk etməliyik".

Nəsiman müəllim həmçinin Xocalı soyqırımı ilə bağlı ilk kitabı 1992-ci ildə özünün yazdığını da vurğulayıb: "Qeyd etmək istəyirəm ki, Xocalı faciəsi ilə bağlı müxtəlif ölkələrdə diaspora təşkilatlarımız, səfirlərimiz fəaliyyət göstərməlidir. Tədbirlərə yalnız azərbaycanlıları deyil, başqa xalqların nümayəndələrini, xarici media mənsublarını da dəvət etməlidirlər".

**Samirə Ərəbova**



# Hər sürücü aya ortalama 200 manat benzinə pul xərcləyir

"Bizim xərcimizin çox çıxmasının əsas səbəbi odur ki, yanacağa müxtəlif qatqılar qatılır"

Azərbaycandakı sürücülərin əksəriyyəti Aİ-92 markalı benzindən istifadə edir. Bu da onların 65 faizini təşkil edir. Qeyd edək ki, bu statistikanı Media-Analiz Mərkəzinin keçirdiyi sorğunun nəticəsi təsdiqləyir.

Sorğuda 725 respondent iştirak edib ki, onların da 86,8faizi kişilər, 13,2 faizi isə qadınlar olub. Rəyi soruşulanların 4-də 1- faizi yanacağa sərf etdikləri aylıq xərcin 100 manata qədər, 319 nəfər 44 faiz, 21 faizi 200-300 manat, 10 faizi isə 300 manatdan yuxarı olduğunu bildirib. Yanvarın 4-də Tarif Şurası Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) xahişi əsasında ölkədə yanacağın qiymətinin qaldırılması barədə qərar qəbul edib. Beləliklə, Aİ-92 markalı benzinin pərakəndə satış qiyməti 1 litr üçün 1 AZN, dizel yanacağının qiyməti isə 0,80 AZN müəyyənləşdirilib. Yəni hazırda ölkədə ən ucuz benzin məhz yerli istehsal olan Aİ-92 brendidir. Aİ-95 və Aİ-98 markalı benzin isə xaricdən istehlak olunur. Məsələ ilə bağlı nəqliyyat üzrə ekspert Elməddin Muradlı "Şərq"ə açıqlama verərkən bildirdi ki, əgər ölkədə istehsal olunan yanacağın keyfiyyəti yaxşı olsa və qatqısız satılsa sürücülərin hazırkı xərcləri 30 faizə qədər azala bilər: "Yanacağın sərfiyyatı ilə bağlı proses təbii ki, hamıda eyni ola bilməz. Avtomobilin mühərrikinin gücünə görə fərqli miqdarda yanacaq sərf olunur. Eləleri də var ki, iş adamıdır, bütün günü yollardadır. Onun aylıq xərci bəlkə də min manatı ötür... Son vaxtlar bizdə benzin və dizelin qiyməti qalxandan sonra yanacaq sərfiyyatı birdən-birə artmağa başladı. Yəni deyək ki, əvvəl on manata 11 litr benzin alıb 100 km hərəkət edə bilən adam indi 11 manata həmin benzini alıb 70-80 kilometrə güclə çatır. Problem budur. Bizdə yanacağın keyfiyyəti yaxşı olsa, istər dizel, istərsə də benzin qatqısız satılsa inanın ki, həmin sorğuda iştirak edən insanların, eləcə də başqalarının xərci ən az 30 faiz azalar. Bizim xərcimizin çox çıxmasının əsas səbəbi odur ki, yanacağa müxtəlif qatqılar qatılır. Bu hallar olmasa tam əminliklə deyə bilərəm ki, yanacağa sərf olunan xərc xeyli azala bilər". **Məsələyə digər aspektdən yanaşan iqtisadçı-ekspert Kazım Məmmədov "Şərq"ə açıqlamasında deyib ki, ödənişlərin artması nəqliyyat xərclərində deyil, bir çox istehlak məhsullarında da özünü göstərir.** Bu da gələcəkdə inflyasiyaya səbəb olacaq: "Bu gün ölkədə benzin və dizel yanacaqlarının qiymətlərinin iqtisadi davranışlara necə təsir göstərəcəyini təxmini müəyyən etmək üçün ilk növbədə ölkədə istifadədə olan avtomobillərin mühərriklərinə baxmaq lazımdır. Azərbaycanda təxminən 95 oktanlı benzinlə işləməli olan avtomobillər maksimum 20-25 faizi aşmır. Yəni hər 4 və ya 5 avtomobildən biri. Hansı benzindən istifadə məsələsinə gəlincə, məsələn, bildirirlər ki, 2005-ci ildən sonra istehsal olunan maşınlar 95-lə işləməlidir. Amma o maşın Rusiyada istehsal olunubsa, onun üçün 95 yox, 92 kifayətdir. Yaxud Koreyadan gəlibsə, hətta 2008-2009-cu ilin avtomobili olsa da, onlar 92 oktanlı benzinlə işləməlidir. Avtomobilin texnikası istehsalçı tərəfindən hazırlananda, xüsusən elektron idarəetmə sistemi konkret oktanlı benzinə hesablanır. Əgər o, orijinal qalırsa və yaxud ola bilsin ki, köhnə avtomobillər modernləşdirilib təzə avtomobillər kimi 95-ə hesablanırsa, ona zavodun məsləhət bildiyi benzini tökmək lazımdır. Əks halda avtomobilin mühərrikinin ömrünü azaldır, yanacaq sərfiyyatı da artır. 92 oktanlı və dizel yanacağının qiymətinin artması avtomobil istifadəçilərinə çox ciddi təsir göstərib. Bu o demək deyil ki, qiymət artımı avtomobil istifadəsini azaldıb. Əksinə, bu gün tıxaclara baxdıqda görünən mənzərə hər şeyi aydın göstərir. Sözügedən qiymət artımından ən böyük yük yenə də istehlakçı olan vətəndaşların üzərinə düşür və bu, sadəcə nəqliyyat xərclərində deyil, bir çox istehlak məhsullarında da özünü göstərir. Yəni bu, çox keçmədən aşağı-yuxarı bütün sahələrə nüfuz edəcək ki, bu da gələcəkdə inflyasiyanı artıracaq. İstisna kompensasiyaların belə bahalaşmanın qarşısını ala biləcəyini düşünmürəm".

**Ağarza Elçinoğlu**

## İllik 120 min manat...

Dövlət büdcəsindən ayrılan vəsait partiyanın inkişafına və təşkilatlanmaya sərf olunacaq



**Milli Məclisdə təmsil olunan siyasi partiyalara dövlət büdcəsində nəzərdə tutulan vəsait ödənilib.**

Partiyalara maliyyə yardımının göstərilməsi üçün 2021-ci ilin dövlət büdcəsində 4 milyon manat vəsait nəzərdə tutulub. Maliyyə Nazirliyindən verilən məlumata görə, ilin birinci rübü üzrə 10 siyasi partiyaya ümumilikdə 857,5 min manat məbləğində vəsait ödənilib. Vətəndaş Birliyi Partiyasının sədri, deputat Sabir Hacıyev isə vəsaitdən imtina edib.

**Milli Məclisdə təmsil olunan Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli "Şərq"ə deyib ki, parlamentdə təmsil olunan partiyalara 2013-cü ildən etibarən dövlət büdcəsindən vəsait ayrılır.** Onun sözlərinə görə, hər dəfə Milli Məclisdə mandat sahibi olan Vətəndaş Həmrəyliyi Partiyasına da bu istiqamətdə vəsaitlər ayrılıb: "Ayrılan vəsait mərkəzi aparatda və rayon təşkilatlarında çalışan üzvlərə əməkhaqqı verilməsi, partiyanın texniki işlərinin görülməsi, təşkilati məsələlərlə bağlı ezamiyyətə sərf edilir. Büdcədən partiyalara maddi dəstək olunması müsbət haldır, amma ayrılan vəsait partiyanın bütün ehtiyaclarının ödənilməsinə kifayət etmir. Ələvə olaraq parlamentdə təmsil olunan partiyaların sayının artması ilə əlaqədar ayrılan məbləğ azaldılıb. Bu da müəyyən çətinliklər yaradır".

**Büdcədən vəsait alan Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə də "Şərq"ə bildirib ki, parlamentdə təmsil olunan siyasi partiyalara dövlət büdcəsindən vəsait ayrılması əsasən siyasi partiyaların inkişafına hesablanıb.** Partiya funksionerinin sözlərinə görə, qurumlara maliyyə yardımı edilməsi onların səmərəli çalışmasına, təşkilatlanmasına və cəmiyyətdə dinamik şəkildə fəaliyyət göstərməsinə müəyyən mənada təkan verir: "Milli Cəbhə Partiyası Milli Məclisdə təmsil olunduğuna görə partiyaların maliyyələşməsi haqqında qanuna uyğun olaraq bizə də vəsait ayrılıb. Ayrılan vəsait partiyanın inkişafına və təşkilatlanmaya sərf olunacaq. Milli Məclisdə təmsil olunan partiyalara ayrılan vəsait deputat sayına görə müəyyənləşir. İllik vəsait 120 min manatdan başlayır".

**İsmayıl Qocayev**

## Neftin qiymətini soyuq havalar bahalaşdırıb

Belə hava şəraiti enerjiyə uyğun olan tələbatı yaradır



**"Azeri Light" markalı neftin bir bareli 1,57 dollar və ya 2,50 faiz bahalaşıb.**

Nəticədə dünya bazarında Azərbaycan neftinin bir barelinin qiyməti 64,34 dollar təşkil edib. Qeyd edək ki, Azərbaycan neftinin bir barelinin qiyməti 2020-ci ilin aprel ayında minimal səviyyədə - 15,81 dollar olub, 2008-ci ilin iyulunda isə maksimum qiymətə - 149,66 dollara satılıb.

**Bahalaşmanın hansı həddə qədər davam edəcəyi və səbəblərinə dair "Şərq"ə açıqlama verən Neft Araşdırmalar Fondunun rəhbəri, iqtisadçı İlham Şaban bildirib ki, neftin qiyməti bütün dünyada bahalaşır:** "Azərbaycan nefti də bu bahalaşmaya uyğun olaraq adekvat qiyməti nümayiş etdirir. Bahalaşmanın səbəbləri odur ki, dünyanın şimal yarımkürəsində kəskin soyuqlar baş verir. Belə hava şəraiti isə enerjiyə uyğun olan tələbatı yaradır. Ona görə də birjalarda daha çox qaz və neft məhsulları alınır, insanlar isinmək istəyirlər. Hələ ki, bu həftə ərzində soyuqların davam edəcəyi bildirilib. Bundan sonra hava şəraiti yumşalsa, neftin qiyməti də ucuzlaşacaq".

**Yeganə**

# İnternet vasitəsilə dövlətlər biri-birinə təzyiqlər edirlər





## Kibertəhlükəsizliklə bağlı yeni ixtisasların yaradılması vacibdir

Təhsil naziri Emin Əmrullayev Azərbaycanda yeni ixtisasların yaradılacağını bildirib. Onun sözlərinə görə, növbəti tədris ilində yeddi ixtisas yaradılacaq: "Uğurlu olan SABAH qruplarının magistratura səviyyəsində yeni olan - kibertəhlükəsizlik, kompüter elmləri, şəhərsalma və planlaşdırma və sair ixtisaslar yaradılacaq".

Nazir qeyd edib ki, Azərbaycanda peşə təhsilinin də inkişafı ilə bağlı işlər görülür: "Hazırda peşə təhsilinin nüfuzunun qaldırılması istiqamətində işlər aparılır. Biz sentyabr ayında qısa müddətli kursların hazırlanması, yüksək peşə ixtisası modelləri üzərində yeni peşə ixtisası təhsillərini təhvil vermək istəyirik. Bu təxminən 600-ə yaxın şagirdi əhatə edəcək. **Mövzu ilə bağlı "Şərq"ə danışan "Xəzər" Universitetinin Direktorlar və Qəyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı bildirib ki, Qərb dünyasındakı təhsil sistemində belə bir prinsip var:** xüsusi ixtisasların siyahısı tərtib olunur, ancaq mütləq həmin ixtisaslar öyrənilməlidir deyə bir anlayış yoxdur: "Ölkəmizdə ixtisaslarla bağlı həmişə bir siyahı olub. Ona görə də yeni ixtisasların yaradılması çox mühümdür. Məsələn, hazırda kibertəhlükəsizlik kompüter elmlərinin canıdır. Çünki nə qədər dövlətlər bir-birinə internet vasitəsilə təzyiqlər göstərirlər. Bir dövlət seçkiyə təsir edir, digər ölkə təhlükəsizliyinə aid məlumatları əldə edir. İndi dünyada peyklərdən tutmuş hər şeydən avtomatlaşdırılmış şəkildə istifadə olunur. Ona görə də yeni ixtisasların yaradılmasına çox ehtiyac var".

**Professor qeyd edib ki, şəhərsalma və planlama kimi ixtisaslar da lazımdır:** "İxtisaslar bakalavr və magistr səviyyəsində genişlənməlidir. Bu, olduqca təbii bir hadisədir. Çox yaxşı olardı ki, lazım olan ixtisasların siyahısını hazırlayaq, məzmununu müəyyən edək, xarakteristikasını aydınlaşdıraq və bu ixtisasları elan edək. Ali məktəblər də həmin ixtisasları uyğun bilsələr, açarlar. Gələcəkdə yeni texnologiyanın və yaxud cəmiyyətin inkişafı ilə əlaqədar qarşıya çıxan problemlərin həlli həddindən artıq mühüm olanda bu sahədən mütəxəssislərin hazırlanması lazım gələcək. Təbii ki, o ixtisasların adı, siyahısı və xarakteristikası lazımdır. Bu baxımdan yeni ixtisasların yaradılması müsbət hadisədir".

**Yeganə Bayramova**

## Bəzən çox gecikirik

### Korrupsiyalaşmış idarələr vaxtında yoxlanılmalıdır



**Maliyyə Nazirliyi Vidadi Muradovun "Azərxalça" ASC-nin İdarə Heyətinin sədri olduğu dövrlə bağlı araşdırmaya başlayıb.**

Nazir Samir Şərifovun əmri ilə, adıçəkilən qurumun maliyyə-təsərrüfat fəaliyyəti yoxlanılır. "Azərxalça" ASC-nin yarandığı dövrdən indiki zamana qədər olan müddət təftiş edilir. Həmçinin ASC-nin bütün müəssisələrində də bu araşdırmalar davam etdirilir. **Yoxlamaların effektiv nəticə verib-verməməsinə dair fikirlərini "Şərq"lə bölüşən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Maliyyə Nazirliyinin funksiyalarından biri dövlət büdcəsindən ayrılan vəsaitlərlə bağlı araşdırmalar aparmaqdır:** "Təəssüf ki, "Azərxalça"nın rəhbərliyi ilə bağlı həbs tədbiri görüləndən sonra bu yoxlamalara başlanıldı. Bəlkə də Maliyyə Nazirliyi araşdırmaları öncədən aparsaydı, neqativ halların qarşısını almaq daha tez olardı. Ona görə də "Azərxalça"dakı xoşagəlməz hadisələr bir növ örnək olmalıdır. Büdcədən ayrılan vəsaitlərlə bağlı həm Hesablamalar Palatası, həm də Maliyyə Nazirliyi öz səlahiyyətlərindən daha ciddi istifadə etməlidir. Çünki sonradan üzə çıxan korrupsiya faktlarından məlum olur ki, büdcədən ayrılan vəsaitlər təyinatı üzrə xərclənmir və bu sahədə kifayət qədər problemlər yaşanır. Maliyyə Nazirliyi qanunvericiliyin verdiyi səlahiyyətlər çərçivəsində müəyyən yoxlamalar apara bilər. Lakin bu yoxlamalar hansısa neqativ hadisələr baş verəndən sonra yox, əvvəlcədən olmalıdır".

**Yeganə**

## Uşaqlarınızı bağçalardan saxlamayın!

### Əks halda onların psixikasında ciddi problemlər yarana bilər



**Bir neçə gündür ki, məktəbəqədər təhsil müəssisələrində (uşaq bağçaları) əyani təhsil bərpa edilib.**

Qorxusu yoxdur, bir-iki günə onlar öz təbii mühitinə uyğunlaşacaqlar

Məktəbəqədər təhsil müəssisələrində artıq həftə içi hər gün əyani təlimlər aparılacaq. Amma buna baxmayaraq, bəzi valideynlər öz övladlarını bağçaya göndərməkdə tərəddüd edirlər. Onlar bunu həm pandemiya ilə, həm də uzun müddətdir ki, qapalı mühitdə qalan uşaqların yenidən cəmiyyətə adaptasiyasında çətinliklərin yaradacağı ilə əlaqələndirirlər. Bəzi valideynlər hesab edir ki, evdə qapalı şəraitdə qalmış uşaqların birdən-birə 6-7 saat ərzində bağçada qalması düzgün deyil. Bu onların ilk növbədə mövcud durumuna mənfi təsir edə bilər. **Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən sosioloq Elçin Bayramlı deyib ki, hər hansı bir ciddi problem olmayacaq. Ekspertin sözlərinə görə, ilk günlər bəzi uşaqlarda re-adaptasiya problemi ola bilər:** "Lakin hesab edirəm ki, bir-iki gündən sonra bundan heç bir əsər-əlamət qalmayacaq. Uşaqlar öz təbii mühitlərinə tez uyğunlaşacaqlar. Bu, onların sağlamlığı, tərbiyəsi və təhsili üçün əvəzolunmazdır".

E.Bayramlı qeyd edib ki, əks halda uşaq psixikasında da ciddi problemlər yarana bilər: "Bu səbəbdən də bağçaların açılmasını çox tədqirəlayiq hesab edirəm".

**Aynurə**

# Rəqabət mühiti yaranacaq



### Faydalı qazıntı yataqlarının hərrac yolu ilə istifadəyə verilməsi Azərbaycan təcrübəsi üçün bir ilkdir

Azərbaycanda faydalı qazıntı yataqları hərrac qaydasında istifadəyə veriləcək. İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, bununla bağlı Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili üzrə Auksion Mərkəzi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi arasında razılaşma əldə olunub. Məqsəd bölgələrdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadi mühitin genişləndirilməsi, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasıdır.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən iqtisadçı-ekspert Eldəniz Əmirov vurğulayıb ki, faydalı qazıntı yataqlarının hərrac yolu ilə istifadəyə verilməsi Azərbaycan təcrübəsi üçün bir ilkdir.** Ekspertin sözlərinə görə, indiyə qədər bu təcrübədən istifadə edilməməsi bu yataqların istismarında, perspektiv layihələndirilməsində və potensialından maksimal istifadədə əngəllər yaradan səbəblərdən olub: "Lakin bu işlərin hərraclar vasitəsilə icra edilməsi, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən əsas amildir. Bu, eyni zamanda yeni texniki və texnoloji yanaşmaları sürətləndirəcək. Habelə, innovativ tətbiqlərə stimul verəcək. Eyni zamanda ekoloji təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynayacaqdır".

**E.Əmirov qeyd edib ki, bu yanaşma ayrı-ayrı qurumlar arasında vahid koordinasiya sisteminin gücləndirilməsini də tələb edir:** "Hazırda hərracla bağlı Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili üzrə Auksion Mərkəzi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi arasında razılaşma əldə olunub. Bu ilkin razılıq öz səmərəsini vahid koordinasiyanın sistemli şəkil alması nəticəsində daha müsbət nəticələr verə bilər. Həmçinin hərracın səmərəli təşkilinə və standartlara uyğun keçirilməsinə zəmin yaratmış olar. Ümumiyyətlə isə rəqabət təkamülün mühərriki, onun hərəkətverici qüvvəsidir. Hərrac isə bu fəaliyyətin təməlində rəqabət mühitinin yaradılması deməkdir. Amma bir şərtlə ki, bu hərrac şəffaf və beynəlxalq aləmdə qəbul edilmiş qaydalar daxilində keçirilsin. Əgər qeyd edilən bu şərtlər təmin edilərsə, o zaman bunun işğaldan azad olunmuş ərazilərdə mövcud olan faydalı qazıntı yataqları yenidən qiymətləndirilməsində, işlənməsində, daha böyük səmərələrin əldə edilməsində, o cümlədən hasilat potensialından maksimal yararlanmadan son dərəcə müstəsna zəminlər yaranacaq. Əlavə kapitalın toplanması, əlavə iş yerlərinin formalaşması, yeni texnoloji, hətta deyərdim ki, nanotexnoloji yanaşmaların tətbiqi və digər çox saylı üstünlüklər müşahidə edə biləcəyik. Lakin bu hərrac zamanı şəffaflıq təmin edilməzsə və hərrac iştirakçıları üçün bərabər imkanlar yaradılmazsa, o zaman bu yataqların işlənilməsində xüsusi faydaların və səmərəliliyin əldə ediləcəyini gözləmək sadəlövhlük olardı. Düzdür, hazırda hərracın şərtləri, digər detalları və istifadəyə veriləcək faydalı qazıntı yataqları barədə ətraflı məlumat yoxdur. Yalnız o bildirilib ki, ilk mərhələdə Goranboy, Tovuz, Ağcabədi, Beyləqan, Göygöl, Qazax rayonlarında yerləşən yataqlar hərrac qaydasında istifadəyə veriləcək. Ümid edirəm ki, bu istiqamətdə şərtlər və qaydalar təsdiqlənəndən sonra bölgələrdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabət qabiliyyətli iqtisadi mühitin yaradılması üçün şəffaf bir hərracın keçirildiyini müşahidə edəcəyik".

**Aynurə Pənahqızı**

# Bakıda torpağın qiyməti qalxıb

## Rauf Qarayev: “Torpağın qiymətinin qalxması cüzi şəkildə əmlak bazarına təsir edə bilər”



Bakıda torpaq bazarında qiymətlər artıb. Ekspertlər bildirir ki, yanvar ayında Bakıda torpaq sahələrinin qiymətində 3.5 faiz artım olub. Ötən illə müqayisədə isə 10.76 faiz azalma müşahidə edilib.

Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən iqtisadçı-ekspert Rauf Qarayev qeyd edib ki, əvvəllər torpağın mülkiyyəti ilə evin mülkiyyətçisi fərqli-fərqli xüsusiyyətə malik idi: ”Misal üçün, deyək ki, siz müəyyən bir torpaq üzərində ev tikdirmək istəyirsiniz. Bu halda Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən onun mülkiyyətinə dair sənəd alınmalı idi. Daha sonra o torpağın yararlı olub-olmaması ilə bağlı qiymətləndirmə aparılırdı. Əgər yararlı deyildisə, o halda həmin torpağın üzərində ev tikmək olardı. Tikdirilən ev üçün dövlət qeydiyyatından ayrı sənəd alınmalı idi. Bu baxımdan da artıq gələcəkdə torpağı ayrı, evi ayrı və ya birlikdə satmaq mümkün olur. Amma indi torpağı bələdiyyədən alırlar. Yəni əkinə yararlı olmayan kənd təsərrüfatı torpaqları üçün artıq bələdiyyə qeydiyyatı mövcuddur. Bundan sonra artıq torpağın kadastır xidməti, yəni onun həqiqətən də məhsuldar və ya əkinə yararlı olub-olmadığını yoxlayır. Ola bilər ki, bələdiyyə torpağı əkinə yararlı olduğu halda, onu yararsız kimi qeyd edib. Artıq gələcəkdə bu problem olmasın deyə  xidmət indi bunu yerindəcə yoxlayır”.

R.Qarayev qeyd edib ki, elə hallar olur ki, bələdiyyə vətəndaşa torpağı saxta sənədlə satır: ”Nəticədə vətəndaş verdiyi pulu ala bilmir. Məsələ məhkəməyə qədər gedib çıxır. Bu baxımdan vətəndaşlar diqqətli olmalıdır. Bu gün torpaqla bağlı proses reyestr xidmətinə gəlib çatdıqdan sonra ona dair bir çıxarış verilir. Orada evin kvadratı,  torpağın sotu qeyd olunur. Nəticədə vətəndaş artıq evi torpaqla birgə satır. Burada torpağın baha olması önəmli deyil, əsas yerləşmə məntəqəsi və sahəsi rol oynayır. Vergi Məcəlləsinin 203.1. maddəsinə əsasən torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır. Qanuna əsasən, kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə 2 manat müəyyən edilir. Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qayda və meyarlar əsasında müəyyən edilir. Bakı şəhərində sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla) 10000 m?- dək olduqda və 10000 m?- dən yuxarı olan hissə üçün qiymətlər digər regionlardan fərqlidir. Bu baxımdan torpağın qiymətinin qalxması cüzi şəkildə əmlak bazarına təsir edə bilər. O da alqı-satqı zamanı ödənilən rüsumlar çərçivəsində mümkündür”.

**Aynurə Pənahqızı**

## “Peşə təhsilini ön plana çəkməliyik"

”Vəziyyətin necə olmasından asılı olmayaraq, onlayn formada dərslər davam etdirilməlidir”



**Peşə Təhsili üzrə Dövlət Agentliyinin verdiyi məlumata əsasən, pandemiyadan sonra peşə təhsili ilə bağlı ”Teledərs”lərin efir yayımında müəyyən dəyişikliklər olsa da, onlayn olaraq müxtəlif videoplatformalarda həm Təhsil Nazirliyinin, həm də sosial şəbəkələrdə bu dərslərin yayımlanması davam edəcək.**

Təhsil üzrə ekspert Nadir İsrafilov ”Şərq”ə bildirib ki, əvvəllər peşə təhsili sahəsinə maraq az olsa da, indi bu məsələ günümüzün ən aktual mövzularındandır:

”Peşə təhsili elə bir sahədir ki, burda sadəcə nəzəri biliklər verilmir, eləcə də müxtəlif vərdiş və bacarıqlar aşılanır. Bu səbəbdən biz peşə təhsilini ön plana çəkməliyik. Həmin məsələ günümüzün aktual problemlərindəndir. Təhsil naziri son çıxışlarında da bu mövzuya toxunub ki, distant təhsil yaranmış vəziyyətlə bağlıdır. Biz distant təhsilə məqsəd yox, vasitə kimi baxmalıyıq. Hazırda təhsil sahəsində vəziyyətdən çıxış yolu kimi bütün imkanlardan istifadə olunur”.

Nadir bəy deyir ki, vəziyyətin necə olmasından asılı olmayaraq, onlayn formada dərslər davam etdirilməlidir: ”Biz tam ənənəvi təhsilə keçsək belə hibrid təhsil formasından istifadə edəcəyik. Bu demək deyil ki, sabah hər şey öz axarına düşərsə, distant təhsildən imtina etməliyik. Distant təhsil Azərbaycan Respublikasının qanunvericiliyində də öz əksini tapıb. Bu formatda dərslər həmişə davam etdirilməlidir ki, insanlar hər cür vəziyyətə hazır olsun”.

**Aytac Ali**

## Qənnadı məhsullar təhlükəli yağlarla hazırlanır

“İstehsalçılar məsuliyyətə cəlb olunub, cəzalandırılmalıdırlar”



**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Şəki şəhəri, S.Rəhman küçəsində yerləşən un məmulatlarının satışı ilə məşğul olan obyektlərdə yoxlama keçirilib.**

Keçirilən yoxlama zamanı istifadə olunan bitki yağlarının keyfiyyəti ilə bağlı araşdırma aparılıb.  Bu zaman baxış keçirilmiş 6 obyektdən 3-də istifadə olunan yağların dəfələrlə istifadə olunduğu, keyfiyyətinin normalara cavab vermədiyi aşkar olunduğundan yerindəcə məhv edilib, qanunvericiliyə uyğun olaraq tədbirlər görülüb. Eyni zamanda sahibkarlara qanunvericiliyin tələbləri izah edilib.  **Qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyev deyir ki, belə hallara yol verən müəssisələrə istənilən bölgədə rast gəlmək olar:** ”Qənnadı məmulatlarının hazırlanmasında  istifadə edilən yağların əksəriyyəti qidalanmaya yararlı deyil. Bunlar trans yağlar qrupuna aiddir. Təkcə Şəki şəhərində deyil, ölkənin müxtəlif ərazilərində belə yağlar istifadə edilən müəssisələr var. Ən çox fri, yaxud çipsi hazırlanarkən trans yağlardan istifadə olunur. Həmin yağlardan uzunmüddətli istifadə etmək orqanizmdə müəyyən fəsadlara səbəb olur”.  Ekspert qeyd edir ki, bu işi görən adamlar mütləq şəkildə məsuliyyətə cəlb olunmalıdırlar: ”Burda əsas amil olan vicdan məsələsidir. Həmin işi görən insan vicdanını qarşısına qoyub hərəkət etməlidir. Çünki sözügedən məsələ yolverilməz və arzuolunmazdır. Bu zaman təkcə müəssisənin bağlanmağı yüngül cəza olar. Onlar vətəndaşların sağlamlığına zərər vuran, mənfi təsir edən halları həyata keçirib məhsul istehsal edirlərsə qarşısını almaq mütləqdir. Düşünürəm ki, istehsalçılar məsuliyyətə cəlb olunub, cəzalandırılmalıdırlar”.

**Aytac Ali**

# Onlayn təhsili artıq vərdişə çevirməliyik

"Artıq bir ilə yaxındır ki, Azərbaycanda təhsil sistemi tamamilə onlayn qaydaya keçib. Nəzərə alsaq ki, biz 2020-ci ildə buna hazır deyildik. Ona görə də 2019/2020-ci illər tədris ili başa çatanda biz məktəbdaxili və ali təhsil müəssisələrindəki qiymətləndirmədə güzəştlərin labüd olduğunu bilirdik. Amma bundan sonra heç bir güzəşt olmayacaq".



## Hər kəs dərslərdə cavabına və biliyinə görə qiymətləndiriləcək

Bu sözləri ”Şərq”ə açıqlamasında təhsil eksperti  Kamran Əsədov deyib. O vurğulayıb ki, ölkəmizdə 2020/2021-ci tədrs ili tamamilə onlayn qaydada başlayıb: ”Məlumdur ki, ölkəmizdə istər təhsilin təşkili, istər tədrisin həyata keçirilməsi, istərsə də qiymətləndirmə onlayn qaydadadır. Bu o deməkdir ki, 2020-ci illə müqayisədə biz artıq bu formatda yaşamağa, işləməyə, təhsil almağa və  təhsil verməyi öyrəşmişik. Əminliklə söyləmək olar ki, qlobal təhsilalma forması olan onlayn təhsilin inkişafının birinci mərhələsi uğurla həyata keçib. Pandemiyanın bizə verdiyi mesaj bu oldu ki, biz distant - məsafədən təhsili düzgün dəyərləndirib onun inkişaf etdirilməsinə nail olmalıyıq. Biz təməslı təhsilin əhəmiyyətini azaltmayaraq ənənəvi təhsili də, distant təhsili də bir-birinə alternativ və yanaşı təhsil formaları kimi tətbiq etməliyik. Düzdür, distant təhsildə bəzi çatışmazlıqlar var. Məsələn, hamının kompüteri və telefonu yoxdur ki, dərslərə qoşulsun. Amma etiraf edək ki, qoşulanların sayı 2020-ci illə müqayisədə bu il daha çoxdur. Ona görə də artıq onlayn təhsilə biz müvəqqəti təhsil forması kimi baxmamalıyıq. Yəni bu təhsil artıq keçici təhsil forması deyil”.

K.Əsədov qeyd edib ki, bundan sonrakı həyatımızda, hətta postpandemiya dövründə belə onlayn təhsil bizim təhsilalma formalarımızdan birinə çevriləcək:  ”Artıq bu formatda təhsil almağa və qiymətləndirməyə hazır olmalıyıq. Çünki yeni təhsil prosesindəyik. Ona görə də dərslər onlayn qaydada keçirildiyi üçün qiymətləndirmə də belə olacaq. Artıq hər kəs dərslərdə cavabına və biliyinə görə qiymətləndiriləcək. Biz öz həyatımızda onlayn təhsili və onlayn qiymətləndirməni adi bir vərdişə çevirməliyik. Birmənalı şəkildə qeyd edim ki, biz bu prosesə artıq hazırıq”.

**Aynurə Pənahqızı**

# Koronavirusun pişiklərdə aşkarlanması yenilik deyil



Türkiyədə insana keçməyən, yoluxucu "pişik koronavirusu" kimi tanınan Pişik İnfeksion Peritoniti (FIP) aşkarlanıb. Xəstəlik Eskişehirdə küçə pişiklərində müəyyən edilib.

## Çünki virusun heyvanlardan insana keçməsi istisna edilmir

Müalicə olunmayan sözügedən xəstəlik səbəbindən epidemiya narahatlığı yaşanır. Heyvan sığınacaqlarında və xüsusi klinikalarda karantin otaqları hazırlanıb. Bu günləri bir çoxlarını maraqlandıran əsas suallardan biri pişiklərdə aşkarlanan yeni koronavirusun insanlara keçmə ehtimalının olub-olmamasıdır.

**Suallarımıza aydınlıq gətirən həkim-pulmonoloq Ramin Nəriman "Şərq"ə açıqlamasında ilk olaraq qeyd edib ki, bugünki günə olan təsəvvür belədir ki, koronavirus məhz heyvanlardan yaranıb.** Həkim əlavə edib ki, o, mutasiya nəticəsində heyvanlardan insanlara keçib: "Əvvəlki dövrlərdə də koronavirus heyvanlarda, o cümlədən it, pişik və digər heyvanlarda da aşkarlanıb. O baxımdan Türkiyədə koronavirusun pişiklərdə aşkarlanması elə də bir yenilik deyil. Çünki bu, əvvəllər də mövcud olub. Yəni onlarda koronavirusun aşkarlanması təəccüb doğuracaq bir hal deyil. Dediyim kimi, koronavirus heyvanlardan insana keçib".

*Pulmonoloq vurğulayıb ki, koronavirusun doğrudan da pişiklərdən insanlara keçib-keçməməsi barədə təsdiq eləyəcək bir tədqiqat yoxdur:* "Hesab edirəm ki, onun gələcəkdə insanlara keçib-keçməməsini gələcək göstərəcək. Yəni hazırda buna proqnoz vermək mümkün deyil. Pişiklərdə koronavirusun aşkarlanması o demək deyil ki, yeni mutasiya yaranacaq. Elə bir halı gözləmək mümkündür".

**Aynurə Pənahqızı**



# İlk dəfə yaşandı

## Dəvələrin onlayn satışı baş tutub

*(Əvvəli səh: 16-da)*

**Mərkəzi Avstraliyada ən az 300 000 vəhşi dəvə olduğu təxmin edilir.**

Dəvələr çox vaxt su qıtlığı səbəbi ilə heyvandarlıq ilə rəqabət edirlər. Minlərlə dəvə fermerlər tərəfindən öldürülüb.

Qərbi Avstraliya da daxil olmaqla, bu heyvanlar dövlət tərəfindən kənd təsərrüfatı zərərvericiləri elan edilib. Vəhşi sürülər bundan əlavə təcrid olunmuş yerli icmaların sağlamlığına da təhlükə hesab olunur.

Heyvanlar 19-cu əsrin ortalarında Cənubi Asiya və başqa yerlərdən Avstraliyaya gətirilib. Bunlardan müstəmləkə Avstraliyasında nəqliyyat kimi istifadə edilirdi. Ancaq motorlu nəqliyyat vasitələri onları sıxışdırdıqda dəvələrin bir çoxu vəhşi təbiətə buraxılmış. ya qaçmışlar.(bbc)

Digər canlılar kimi dəvələr də Avstraliyanın sərt şəraitinə uyğunlaşa bilib.

Avstraliya pişiklər, tülkülər, donuzlar və qamış qurbağaları da daxil olmaqla, idarəolunmaz vəhşi zərərverici heyvanların idxalına dair uzun və fəlakətli bir tarixə malikdir.

# 300 nəfərin iştirakı planlaşdırılır

## Koronavirus peyvəndi 6-17 yaşlı uşaqlar arasında test ediləcək




**Yeni koronavirus peyvəndi 6-17 yaşlı uşaqlar arasında test ediləcək.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bunun üçün artıq Oksford Universitetinin "St George" , "Southampton" Universiteti və "Bristol" uşaq xəstəxanasında aparılacaq klinik sınaq üçün könüllü qeydlərinə başlanılıb. "Covid-19"-un peyvənd sınağında 300 uşağın iştirakı planlaşdırılır. Onlardan 240-a "Covid-19", 60-na isə meningit peyvəndinin vurulması nəzərdə tutulub. Təcrübədə "Oxford-AstraZeneca" peyvəndindən istifadə ediləcək.

*Qeyd edək ki, bundan öncə Almaniyanın "BioNTech", ABŞ-ın "Pfizer" peyvəndlərinin 12-17 yaşlı uşaqlar arasında sınaqdan keçiriləcəyini açıqlamışdılar.*

**Aynurə**

# Mutasiyalar dünyanı sovub-sovuracaq

## Professor bədbin proqnoz verib

**Koronavirusun yeni "Britaniya ştammı"nın bütün dünyaya yayılacağı iddia edilir.**

Medicina.az xəbər verir ki, professor Sharon Peacock BBC-yə verdiyi açıqlamada bu mutasiyanın 50-dən çox ölkədə aşkarlandığını və böyük ehtimal bütün dünyanı "dağıdacağını" bildirib: "Yalnız virusun öldürücü xüsusiyyətini aradan qaldırmaqla rahat ola bilərik. Amma buna baxmayaraq gələcəyə baxdıqda yenə də qorxmalıyıq. Məncə, 10 il sonra hələ də narahat olacağıq".

Professor həmçinin qeyd edib ki, B117 olaraq tanınan mutasiya 70 faiz daha sürətlə yayılır. 60 yaşdan yuxarı insanlarda isə 30-40 faiz daha ölümcül xüsusiyyətə malikdir.

# "Kənddən Şəhərə" yarmarkaları yenidən təşkil olunacaq



## Yarmarkalarda birbaşa fermerlər tərəfindən təbii kənd və qida məhsullarının satışı həyata keçiriləcək

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən 19-21 fevral tarixlərində Bakı və Abşeron ərazisində üç fərqli nöqtədə "Kənddən Şəhərə" həftəsonu yarmarkaları təşkil olunacaq. Bu barədə "Şərq"ə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.

Yarmarkalarda birbaşa fermerlər tərəfindən təbii kənd və qida məhsullarının münasib qiymətlərlə satışı həyata keçiriləcək.

Yarmarkanın təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanalı yaratmaq və şəhər sakinlərinin kənd təsərrüfatı məhsullarına olan tələbatını daha dolğun təmin etməkdir.

Qeyd edək ki, yarmarka karantin rejiminin tələblərinə tamamilə əməl olunmaqla keçiriləcək. Yarmarkada əvvəlcədən qeydiyyatdan və tibbi müayinədən keçən fermerlər iştirak edəcəklər. Onlar ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və.) da təmin olunacaqlar. Yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya tədbirləri aparılacaq, yarmarkaya daxil olan vətəndaşların temperaturları ölçüləcək və ziyarətçilərin sosial məsafəni qorumasına ciddi nəzərət olunacaq.

"Kənddən şəhərə" həftəsonu yarmarkası aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının çıxışı)
- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

# "Nar" Naxçıvanda şəbəkəsini genişləndirməyə davam edir

**Ölkənin bütün regionlarını keyfiyyətli şəbəkə ilə təmin etməyi hədəfləyən "Nar" Naxçıvan Muxtar Respublikasında da baza stansiyalarının sayını artırmağa davam edir.**

Son iki ayda aparılan şəbəkə təkmilləşdirilməsi işləri nəticəsində Muxtar Respublikada 13 yeni baza stansiyası fəaliyyətə başlayıb.

Yeni 3G baza stansiyaları Şahbuz, Şərur, Ordubad, Culfa və Kəngərli rayonlarının mərkəzdən kənar kəndlərini yüksək keyfiyyətli şəbəkə ilə təmin edir. Ümumilikdə "Nar" şəbəkəsi NMR-da 158 baza stansiyası ilə əhalinin 99,6%, ərazininsə 98,5%-ni əhatə edir.

Regionlarda yüksək sürətli internetə çıxışı daha əlçatan edən "Nar" bundan sonra da şəbəkə təkmilləşdirilməsi işlərinə davam edəcək. "Nar" şəbəkəsinin əhatə dairəsi ilə daha ətraflı burada tanış ola bilərsiniz.

**Elan**

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən Abdullayev Ramazan Abbas oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 320



# Dəstənin lideri tutuldu

## Saxta peyvənddən 3 milyon dollar qazanıb

**Çində saxta koronavirus peyvəndi istehsal edən dəstə üzvü həbs edilib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, mineral su və fizioloji məhluldan 58 min saxta koronavirus peyvəndi istehsal edən dəstənin lideri Konqun tutulub. Onun saxta peyvənddən 3 milyon dollar qazandığı bildirilib. Həmin saxta peyvəndlərin orijinal qablaşdırmaya tam uyğun şəkildə qablaşdırıldığı qeyd olunub. Sözügedən saxta qarışıqların bir qisminin ölkə daxilində kənd həkimlərinə və xəstəxanalara göndərildiyi vurğulanıb. Xaricə qaçaq yolla gətirilən peyvəndlərin isə hansı ölkələrə göndərildiyi hələlik müəyyənləşdirilməyib.

*Qeyd edək ki, 2020-ci ilin son günlərindən bugünədək Çində saxta peyvənd istehsalı ilə bağlı 70 nəfər həbs olunub. 1,4 milyard əhalisi olan Çində bu günə qədər 40 milyon insan peyvənd olunub.*

**Aynurə**

# Yeni sevgilisi də yanındadır

## Ürək əməliyyatından sonra belə görüntüləndi



**Bir müddət əvəl ürəyindən əməliyyat olunan Hollivud ulduzu Arnold Şvartseneqqer əvvəlki səhhətinə qovuşub.**

Axşam.az xarici KİV-ə istinadən bildirir ki, 73 yaşlı aktyor Los-Ancelesin "Venice Beach" ərazisində velosiped sürərkən görüntülənib. Şvartseneqqerin yanında yeni sevgilisi də olub.

Əməliyyatdan yeni çıxan aktyorun velosipedi sürətlə idarə etməsi hər kəsi təəccübləndirib.

# Meksika gözəlinə 50 il iş verilə bilər

## Romero insan oğurluğuna görə saxlanılıb



**Meksika gözəli Laura Mojika Romero polis tərəfindən saxlanılıb.**

Qafqazinfo xəbər verir ki, o, insan oğurluğu ilə məşğul olan mütəşəkkil dəstəyə üzv olmaqda ittiham edilir.

25 yaşlı model haqqındakı iddialar doğru olduğu təqdirdə 50 ilədək həbs oluna bilər. Meksika Baş Prokurorluğunun məlumatına görə, o, sözügedən dəstəyə üzv səkkiz nəfərdən biridir. Bildirilib ki, Romero iki aydır ki, həbs həyatı yaşayır.

# Serialdan aylıq 240 min qazanır



**Türkiyəli aktrisa Hande Erçel bu il aldığı məvaciblərlə gündəmdə olmağa davam edir.**

Axşam.az xəbər verir ki, geyim markasının siması olan aktrisa reklamdan 1,5 milyon TL (təxminən 366 min 300 manat), diş məcunu reklamından isə 2 milyon TL (təxminən 488 min 400 manat) qazanıb.

H.Erçel baş rolunu canlandırdığı "Sen çal kapımı" serialından isə aylıq 240 min TL (təxminən 58 min 608 manat) qonarar alır.



# Dronu 5 metr yüksəklikdə qapdı

## Kanqal itlərinin ətrafında quş belə uça bilməz



**Kanqal iti 5 metr yüksəklikdə olan dronu qapıb.**

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, hadisə Tunceli vilayətində baş verib. Kanqal it ərazidə çəkiliş aparan media nümayəndələrinin dronuna qəfildən hücum edib. Bu zaman itin görüntüləri anbaan kameraya düşüb. Bu görüntülər ictimaiyyətdə böyük marağa səbəb olub.





**Hadisəni analiz edən gənc kinoloq Orhan Yalçınka bildirib ki, kanqal iti bu hücumu instinktiv olaraq edib. O qeyd edib ki, ola bilsin it dronu quzulara hücum edən bir yırtıcı quş zənn edib:** "Məsələn, onun şahin və ya qartal olduğunu güman etmiş ola bilər. Çünki onlar kim sürüyə yaxınlaşırsa, bunu bir təhdid olaraq qəbul edir. Yalnız ailə üzvlərindən başqa digərlərini qəbul etmirlər. Onlar istər-istəməz sürünü təhdidlərdən qoruyurlar. İdman quruluşuna sahib olan bu itlərin əsas özəlliyi daha yüksəklərə tullanmasıdır. İtlər yaxınlaşmaqda olan təhlükəni dəf etmək üçün bütün güclərini göstərməyə hazırdırlar. Qeyd edim ki, hazırda qoyunların bala gətirmə zamanıdır. Böyük qartalların həmin quzuları tutmaması üçün kanqallar bu ərəfədə belə səylər göstərirlər. Onlar sürünü yalnız canavarlara qarşı deyil, bütün yırtıcı canlılara qarşı qoruyurlar və bunu da instinktiv olaraq edirlər. Kanqal köpəyinin ideal çəkisi 55-60 kilo, dişiləri isə 45-50 kilo arasında olmalıdır. Amma onların çəkilərinin ağır və yüngül olmasının heç bir önəmi yoxdur. Ən əsası atletik bacarıqları olmalıdır".

**Aynurə**

# İlk dəfə yaşandı

## Dəvələrin onlayn satışı baş tutub



**Vəhşi dəvələr ilk dəfə Avstraliyanın aparıcı onlayn heyvandarlıq hərracında satılıb.**

Avstraliya dünyanın ən böyük vəhşi dəvə sürüsünə malikdir. Avstraliyanın hərrac satıcıları 93 ərəb dəvəsinin onlayn satışını həyata keçirəcəyinə əmin deyildilər, lakin onların hər biri 230 dollara satılıb.

Dəvələrin çoxu təsərrüfatlarda tikanlı alaq otlarını nəzarətdə saxlamaq üçün alınıb. Onlara yerli ət satıcıları tərəfindən də maraq göstərilib. Qvinnslandin ucqar bir bölgəsinə toplaşan heyvanlar vertolyotlarla daşınıb. Satış agenti Skott Teylorun dediyinə görə, vəhşi dəvələrin tutulmasına iki gün sərf olunur.

"İki gün ərzində toplandılar. Bəli, sadəcə kollardan çıxıb həyətlərə gəldilər və əsir düşdükdən sonra vəhşi bir heyvan olduqları halda nə qədər tez yerləşdikləri təəccüblü idi "deyə, Teylor bildirib.

Mal-qara, qoyun və keçi ticarəti aparan onlayn xidməti AuctionsPlus-da demək olar ki, 100 heyvan satılıb.

*(Davamı səh: 15-də)*



# Meqan Foksun qanını boynunda daşıyır

## Qan Kelli qeyri-adi addımı ilə diqqət çəkib

**Aktrisa və model Meqan Foksun yeni sevgilisi Qan Kelli qeyri-adi addımı ilə diqqət çəkib.**

Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, aktrisanın repçi sevgilisi onun qan damcısını şüşədən olan klonunda daşıyır.

O, həmin boyunbağının fotosunu sosial media hesabında paylaşıb.

*Qeyd edək ki, Meqanla Kelli ötən ilin iyulunda tanış olublar.*